www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 avqust 2023-cü il Çərşənbə axşamı № 151 (8287) Qiyməti 60 qəpik

**Xəbər**

**Yekaterinburqda rəsmilər Azərbaycan-Rusiya müttəfiqlik sazişinə qarşı!**

yazısı səh.3-də

**Gündəm**

## Prezident Laçından növbəti xəbərdarlığını etdi - "Ancaq irəli..."

**Deputat:** "Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də ermənilər və bölgə üçün yaxşı olacaq"

yazısı səh.4-də

## Bayrağımızı təhqir edən ermənilər Laçın SBM-də saxlanıldı

yazısı səh.4-də

## Vətəndaş cəmiyyəti sülh üçün nə iş görür? - indi ermənilərlə danışmaq olar...

yazısı səh.6-da

## Yediyimiz zəhər olmasın: qida təhlükəsizliyimiz necə qorunur - boşluqlar və ...

yazısı səh.12-də

## Gəncləri qul əməyinə dəvət edən şirkətlər: qanun nə deyir - açıqlama

yazısı səh.10-da

## Türkiyə-Yunanıstan münasibətləri yeni mərhələdə

yazısı səh.11-də

## "No War"çıların dosyesi - onlar harada və necə yetişiblər...

yazısı səh.14-də

## Rəsmi Bakıdan Fransa Prezidentinə xəbərdarlıq

yazısı səh.2-də

## Xırdalanda intihar etdiyi bildirilən kişini arvadı öldürübmüş

yazısı səh.14-də

## Ukraynada Zelenskini devirmək planı "təxirə salındı" - seçkilər müharibədən sonra olacaq

yazısı səh.15-də

# XANKƏNDİ ERMƏNİLƏRİ BAKI İLƏ DANIŞIĞA RUSLA GƏLMƏK İSTƏYİR - SEPARATÇILARDAN SƏRSƏM İDDİA...

Araikin "şeytan yuvası" gülləbaran edildi: separatçılar yeni "taktika" işə salıblar - birbaşa görüşlərdən imtina edərək vasitəçi axtarırlar və Rusiyaya üz tuturlar; ekspertlərin fikrincə, başıpozuq rejimin başının gülləsi çatmır

yazısı səh.8-də

# Nəcməddin Sadıkovun həbsinə hazırlıq gedir - ilginc iddialar

Müdafiə Nazirliyində mənimsəmələrin onun göstərişlərinə uyğun gerçəkləşdiyi təsbit olunub

yazısı səh.5-də



Hacı Salayev

## Eks-deputat 1 milyonluq iddia ilə "Yeni Müsavat"a hücuma keçdi

yazısı səh.5-də



*Siyasi şərhçi:*

## "Putin nəinki xaricə getməkdən, hətta Rusiya daxilində hərəkət etməkdən belə ehtiyatlanır"

yazısı səh.7-də

## Ərdoğan gələn həftə Putinlə görüşəcək

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

# Ərdoğan gələn həftə Putinlə görüşəcək

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın gələn həftə Rusiyada Vladimir Putinlə görüşəcəyi gözlənilir.**

APA xəbər verir ki, "Bloomberg ttps://www.bloomberg.com/" bu barədə Türkiyə mənbələrinə istinadən məlumat yayıb.

Bildirilib ki, görüş Türkiyə Prezidenti Ərdoğanın G20 sammitindən əvvəl sentyabrın 8-də Rusiyaya səfəri çərçivəsində baş tuta bilər.

Görüşdə Qara Dəniz Taxıl Təşəbbüsünün müzakirəsi gözlənilir.




## Rəsmi Bakıdan Fransa Prezidentinə xəbərdarlıq

**Azərbaycan tərəfi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında qərarlıdır və bu prosesə maneçilik törədən bütün kənar müdaxilələrin qarşısı qətiyyətlə alınacaq.**

Musavat.com xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidenti E.Makronun səfirlər konfransında səsləndirdiyi fikirlərə dair şərhində əksini tapıb.

"Praqada Avropa İttifaqı missiyasının və 1991-ci il Almatı Bəyannaməsi çərçivəsində sərhədlərin tanınması təşəbbüsünün müəllifliyinin Fransa tərəfinin olduğunu bildirən Fransa tərəfinin nəyə görə Azərbaycan əraziləri işğal altında olan 30 ilə yaxın bir dövrdə bu kimi təşəbbüslərlə çıxış etmədiyi sualına da cavab verməsi daha faydalı olardı", - məlumatda qeyd edilib.

## Abramyan: "Ermənistan hakimiyyəti üçün Qarabağ məsələsi artıq aktual deyil"

**""Artsax" hakimiyyəti" (rus sülhməramlılarının nəzarət zonasında hələ də qalan oyuncaq, qondarma separatçı rejimin uydurma adı-red.) bir neçə gün əvvəl "dövlət naziri" səviyyəsində Ermənistan hökumətinə yaranmış çətin vəziyyətlə əlaqədar siyasi, hüquqi, iqtisadi, sosial və psixoloji müdaxilə tələbi ilə müraciət edib. Son vaxtlar həmin məsələ yalnız humanitar çərçivədə müzakirə olunur. Lakin bu, həm də siyasi və təhlükəsizlik problemlərinin həll olunmamasının nəticəsidir".**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu sözlər Ermənistan parlamentinin deputatı Tiqran Abramyan tərəfindən yazılıb.

Revanşist siyasətçinin sözlərinə görə, bu problem Ermənistan hökumətinin Qarabağla bağlı Türkiyə-Azərbaycan ittifaqı ilə uyğun hərəkət etməsindədir.

"Paşinyan rejimi əvvəlcə Qarabağın siyasi və təhlükəsizlik məsələlərini həll etməkdən geri çəkildi, sonra açıq şəkildə Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa hazır olduğunu bəyan etdi və bununla da total blokadaya yaşıl işıq yandırdı.

Qarabağ ermənilərindən SOS siqnalı gəlir, rəsmi İrəvan isə bu siqnalı konsertlər və festivallarla boğmağa çalışır", - deyə o qeyd edib.

❑ Musavat.com

## Rusiya aviaşirkəti Bakıya uçuşların sayını artırıb

**Rusiya aviaşirkəti Bakıya uçuşların sayını artırıb.**

APA-nın Rusiya bürosu xəbər verir ki, "İrAero" aviaşirkəti avqustun 31-dən Krasnoyarskdan Bakıya uçuşların sayını ikiyə çatdıracaq.

Belə ki, aviaşirkətin təyyarələri Azərbaycanın paytaxtına cümə axşamı və bazar günləri uçuşlar həyata keçirəcək.

Cümə axşamı Krasnoyarskdan təyyarələr saat 20:20-də, bazar günləri saat 09:10-da Bakı istiqamətində havaya qalxacaq.

## Qarabağdakı layihələrdə iştirak üçün müraciət edən xarici şirkətlərin sayı açıqlanıb

**İşğaldan azad edilmiş ərazilərdə biznes quran və qurmaq niyyətində olan şirkətlərin sayı mütəmadi artmaqdadır.**

"APA-Economics" İqtisadiyyat Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, indiyədək azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə iştirak üçün 500-ə qədəri xarici şirkət olmaqla 1500-dən çox şirkət müraciət edib.

"Bu göstərici istər yerli, istərsə də xarici biznes qurumları üçün Qarabağın böyük və çoxistiqamətli iqtisadi potensialının, əlverişli biznes və investisiya imkanlarının nə qədər cəlbedici olduğunu nümayiş etdirir", - deyə məlumatda qeyd olunur.

## Dövlət bu 400 uşağa mənzil verəcək

**Azərbaycan Prezidenti "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün" Dövlət Proqramını təsdiq edib. Proqramın əsas məqsədi sosial xidmət sisteminin, o cümlədən qanunvericiliyin və institutsional mexanizmlərin təkmilləşdirilməsi və sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılması üzrə dövlət siyasətinin əsaslarını müəyyən etməkdir.**

Musavat.com xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov qeyd edib. O bildirib ki, proqrama əsasən, uşaqlar üçün sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzunu mənzillə təmin ediləcək:

"Söhbət həmin şəxslərin mənzil təminatının yaxşılaşdırılmasında dövlət siyasətinin güclənməsindən gedir.

Proqramda həmçinin 4 şəhər və rayonunda mobil xidmət mərkəzləri vasitəsilə azı 200 nəfər əlilliyi müəyyən edilmiş və 150 ahıl şəxsə mobil xidmətlərin göstərilməsi imkanının yaradılması, 220 uşağın ailəyə qaytarılması və 250 uşağın stasionar müəssisəyə düşməsinin qarşısının alınması, dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunması, azı 120 uşağın himayədar ailəyə verilməsi kimi tədbirlər də nəzərdə tutulub".

## İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı məsləhətləşmə platformaları yaradılacaq

**İnformasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması sahəsində dövlət-özəl koordinasiya və məsləhətləşmə platformalarını yaradılacaq.**

APA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nda əksini tapıb.

Strategiyaya əsasən, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə 2023-2024-cü illər ərzində əməkdaşlığın müxtəlif formalarının effektivliyinin araşdırılmasını, uyğun əməkdaşlıq formalarının seçilməsini, əməkdaşlığın hüquqi əsasının yaradılmasını, müntəzəm olaraq isə təhdidlər, boşluqlar, risklər və s. məlumatların əldə edilməsi və toplanmasının təşkilini, əldə edilən məlumatların bölüşdürülməsi və erkən xəbərvermə mexanizmlərinin yaradılmasını, mexanizmlərin avtomatlaşdırılması imkanlarının genişləndirilməsini təmin etməlidir.

## Polşa və Baltikyanı ölkələr "Vaqner"in Belarus ərazisindən çıxarılmasını tələb ediblər

**Polşa və Baltikyanı ölkələr "Vaqner"in Belarus ərazisindən çıxarılmasını tələb ediblər.**

APA xəbər verir ki, bu barədə Polşanın daxili işlər naziri Mariuş Kaminski bildirib.

Nazirin sözlərinə görə, Litva, Latviya və Estoniya daxili işlər nazirliklərinin rəhbərləri ilə Kaminskinin görüşündən sonra belə bir qərar qəbul edilib.

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

# Yekaterinburqda rəsmilər Azərbaycan-Rusiya müttəfiqlik sazişinə qarşı!

## Separatçıların tədbirinə qatılanlar cəzalanacaqmı; **Çingiz Qənizadə:** "2022-ci ildə Rusiya ilə Azərbaycan arasında imzalanmış müttəfiqlik sazişinin 18-ci maddəsinə görə..."

**Yekaterinburqda qondarma "Talış-Muğan Muxtar Respublikasının yaradılmasının 30 illiyi" münasibətilə tədbir keçirilib.**

Azərbaycanın Rusiyadakı səfirliyi buna etiraz olaraq Rusiya Xarici İşlər Nazirliyinə etiraz notası göndərib. Həmçinin səfir Polad Bülbüloğlu Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevə Azərbaycanın prinsipial mövqeyini və kəskin etirazını əks etdirən məktub ünvanlayıb. Bununla yanaşı, Yekaterinburqda fəaliyyət göstərən Azərbaycan-Ural ictimai milli-mədəni təşkilatının rəhbəri Şahin Şıxlinski də şəhərin müvafiq inzibati orqanlarına bununla bağlı müraciətlər göndərib.

Azərbaycan səfirliyinin yaydığı bəyanatdan aydın olur ki, tədbirdə Yekaterinburq Şəhər Dumasının sədri İqor Volodin də iştirak edib.

"Rusiyanın hakim partiyasının nümayəndəsinin bu addımı separatizmi təbliğ edir, Azərbaycan və Rusiya arasında müttəfiqlik münasibətlərinin ruhuna köklü şəkildə ziddir, həmçinin ikitərəfli əməkdaşlığa xələl gətirir", - deyə bəyanatda bildirilir.

Azərbaycanın Rusiyadakı səfirliyi "İqor Volodinə və bu tədbirin təşkilatçılarına qarşı təcili tədbirlər görməyə, gələcəkdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı belə təxribat xarakterli addımların qarşısını almağa çağırıb". Bildirilir ki, səfirlik bu məsələ ilə bağlı Rusiya tərəfinin rəsmi cavabını gözləyir.

Yada salaq ki, Moskvada fəaliyyət göstərən talış separatçılar əvvəlki illərdə də Azərbaycan dövlətçiliyi əleyhinə fəaliyyət göstəriblər.

Özünü separatçı "Talış-Muğan Respublikası"nın təsisçilərindən biri elan etmiş Fəxrəddin Abbasov isə 2019-cu ilin mayında Rusiyadan deportasiya edilib və DTX tərəfindən Bakı hava limanında saxlanıb.

1993-cü ildə Bakı Dövlət Universitetinin müəllimi olmuş Fəxrəddin Abbasov, yaxud Aboszoda separatçı hərəkat darmadağın edildikdən sonra Rusiyaya qaçmışdı.

2018-ci ilin yayında Azərbaycan məhkəməsi Abbasovun həbsi barədə qərar verib. İstintaqın versiyasına əsasən, Abbasov Ermənistana gedib, erməni xüsusi xidmət orqanları ilə görüşüb və bundan sonra Azərbaycan və onun ərazi bütövlüyünün əleyhinə onlayn-bəyanatlar verib.

2020-ci ilin noyabrında Fəxrəddin Abbasov saxlanıldığı cəzaçəkmə müəssisəsində intihar edib. Həbsxana əməkdaşları tərəfindən dərhal müəssisənin tibbi-sanitariya hissəsinə baxış keçirilib. İlkin təcili tibbi yardım göstərilməsinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb...

Görünür, Rusiyada kimlərsə yenidən bu separatçı dəstəni aktivləşdirməyə çalışır, ona şərait və imkanlar yaradırlar. Bu isə 2022-ci ildə Rusiya ilə Azərbaycan arasında imzalanmış müttəfiqlik sazişinə tamamilə ziddir. Bu sənəddə tərəflərin dövlət maraqlarına zidd fəaliyyətə imkan verməməsi təsbit olunub.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** "Yeni Müsavat"a bildirdi ki, 2022-ci ildə Rusiya ilə Azərbaycan arasında imzalanmış müttəfiqlik sazişinin 18-ci maddəsinə görə Rusiya və Azərbaycan separatçılıq və terrorçuluğa qarşı birgə mübarizə aparırlar. Ekspertin fikrincə, Rusiya ərazisində belə bir tədbirin keçirilməsi sazişin prinsip və normalarına ziddir: "Rusiya və Azərbaycan arasında dostluq, əməkdaşlığa dair çoxsaylı sənədlər imzalanıb. Tədbirdə şəhər dumasının üzvünün də iştirakı o deməkdir k, Rusiya çox ciddi tədbirlər görməlidir. Belə bir "respublika" mövcud ola bilməz. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan Rusiya nəinki təhdid yaradan tədbirləri, hətta fikirləri belə qadağan etməlidir. Azərbaycan XİN haqlı olaraq reaksiya verib. Ümumiyyətlə, bütün lazımi reaksiyalar verilib, cavabı gözləyirik. Yekaterinburq Şəhər Dumasının sədri İqor Volodinə qarşı ciddi cəza tədbirinin görüləcəyini zənn etmirəm. İstənilən halda bu tədbirin kimlər tərəfindən təşkil olunması, kimlər tərəfindən icazə verilməsi, Rusiya ərazisində Azərbaycana qarşı separatçılıqla məşğul olan şəxslərin kimliyinin müəyyən edilməsi və müəyyən tədbirlərin görülməsi normal münasibətləri olan dövlətlər arasında qaçılmazdır. Rusiyanın Azərbaycana münasibəti normal və səmimidirsə, Rusiya lazımi addımların atmalı, təşkilatçıları, icazə verənləri, separatçıları müəyyən etməli, Rusiya qanunlarına uyğun olaraq cəzalandırmalıdır".

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, beynəlxalq məsələlər üzrə ekspert Şəhla Cəlilzadə hesab edir ki, Rusiya hər zaman müxtəlif ölkələrdə separatizmi dəstəkləyən tərəf olub. Ekspert Gürcüstanda Abxaziya, Şimali Osetiya, Ukraynada Krım, Donbas, Moldovada Dnestryanı və s. qeyd etdi:** "Azərbaycanda Rusiyanın iştirakı ilə alovlandırılan etnik konflikt olaraq erməni məsələsi ilə yanaşı, alovlandırıla bilməyən talış məsələsidir. Alovlandırıla bilməyən deyirəm, çünki nə qədər süni kənar təzyiqlər olsa da, bunlar sadə etnik talışların anti-Azərbaycan fikrinə, çevrilişçi əhval-ruhiyyəsinə düşməsinə təsir etmədi. Qondarma "Talış Muğan Respublikası" təbii ki, mövcud ola bilməzdi, çünki onun təməli yalan və saxtakarlıqla atılmışdı. Hərəkatın rəhbəri Ələkrəm Hümmbətov 1993-cü ildə Astarada bir neçə yüz gəncin iştirakı ilə mitinq keçirərkən sadə Astara əhalisi bunun Qarabağa dəstək məqsədilə təşkil olunduğunu düşünürdü. 1993-cü ildə Qarabağda ən ağır döyüşlərin getdiyi bir zamanda rus-erməni-fars işbirliyi içərisində ölkəmizdə parçalanma, separatizm ocağı yaratmağa cəhd edən şəxslər Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, başqa sözlə, onun beynəlxalq güclərlə anlaşması nəticəsində zərərsizləşdirildilər. Ələkrəm Hümmbətov 1998-ci ildə ölüm hökmünə məhkum edilsə də, daha sonra, 2004-cü ildə əfv edilərək ölkə vətəndaşlığından çıxarıldı və 2022-ci ildə Niderlandda yaşlılıq, xəstəlik səbəbi ilə vəfat etdi. Onun başlatdığı hərəkat isə bu gün müxtəlif ölkələrdə xarici kəşfiyyatların anti-Azərbaycan şəbəkəsinin gizli məqsədlərinə xidmət edərək, zaman-zaman boy göstərməkdədir. Məsələn, 2018-ci ildə Hümmətovun qondarma Talış Muğan Respublikasının Mühacir Hökumətini elan etdiyi və bundan sonra qondarma "hökumətin" Azərbaycanla bağlı bir sıra məsələlərdə müraciətlər ünvanladığını qeyd etmək olar. Bu müraciətlərdən biri 2019-cu ildə ATƏT-in Minsk Qrupuna Qarabağ məsələsi ilə bağlı danışıqlar münasibətilə ünvanlanmışdı və ölkəmizdə etnik azlıqların hüquqsuzluğundan şikayət xarakteri daşıyır, məqsədi isə qlobal erməni şəbəkəsinə xidmət edib Azərbaycanın dövlət maraqlarına zərbə vurmaq idi. Təbii ki, bu fəaliyyət müxtəlif qüvvələr tərəfindən öz məqsədləri daxilində, o cümlədən Rusiyanın müvafiq dairələri tərəfindən istifadə edilməkdədir".

**Ekspertin fikrincə, hazırkı "30 illik" münasibətilə keçirilən tədbirdə Rusiyanın Yekaterinburq Şəhər Dumasının sədrinin qonaq qismində iştirakı Rusiya dövlət təsisatlarının Azərbaycana qarşı təxribatçı davranışı olaraq qiymətləndirilir:** "Bu, nə 22 fevral 2022-ci il tarixli Rusiya-Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin ruhuna uyğundur, nə də ikitərəfli dövlət münasibətlərinin xarakterinə. Bu təxribata etiraz edən ölkəmizə rəsmi cavab, hər halda, veriləcək və neytral xarakter daşıyacaq. Belə ki, Rusiya Federasiyası rəsmi olaraq tədbirin təşkilində məsuliyyət daşımadığını, həmçinin şəhər dumasının sədrinin iştirakının onun şəxsi təşəbbüsü olduğunu bəyan edə bilər. Vurğulamaq yerinə düşər ki, separatçı hərəkatın keçmiş rəhbər şəxslərindən biri olan Fəxrəddin Abbasov da 2019-cu ildə Rusiyadan deportasiya edilmiş, hərəkatın israrına baxmayaraq bu barədə hər hansı rəsmi açıqlama verilməmişdi. Abbasov "Ağlagəlməz şeylər haqqında düşüncələr. Talışıstanın azadlığı uğrunda mübarizəm" adlı (2017) kitabını nəşr etdirmiş və ölkəmizdə daha bir separatizm yuvasının təməlinin atmağa çalışmışdı. Odur ki, Rusiyada gizli şəkildə Azərbaycanda separatizmin alovlandırılmasında maraqlı olduğu, üzdə isə bütün bunları inkar mövqeyini tutduğu, bu cür tədbirlərin təşkilinin davam edəcəyi təxmin edilə bilər".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Şarl Mişel: "Aİ 2030-cu ilə qədər yeni üzvlər qəbul etməyə hazır olmalıdır"

**Avropa İttifaqı "etibarını saxlamaq" istəyirsə, 2030-cu ilə qədər genişlənməyə, yeni üzvləri qəbul etməyə hazır olmalıdır.**

APA xəbər verir ki, bunu Aİ Şurasının Prezidenti Şarl Mişel Sloveniyada keçirilən Bled Strateji Forumunda çıxışında deyib.

"İnanıram ki, biz 2030-cu ilə qədər genişlənməyə hazır olmalıyıq. Bu, iddialıdır, lakin eyni zamanda zəruridir. Bu, bizim nə dərəcədə ciddi olduğumuzu göstərir", - Şarl Mişel bildirib.

Aİ Şurasının Prezidenti deyib ki, bloka qoşulmaq üçün gələcək üzv dövlətlər müstəqil məhkəmə sistemini təmin etmək, mütəşəkkil cinayətkarlıq və korrupsiya ilə mübarizə aparmaq üçün islahatlar həyata keçirməli və xarici siyasətlərini Aİ-yə üzv dövlətlərlə uyğunlaşdırmalı olacaqlar. O, bütün namizədləri Avropa İttifaqına daxil olmamışdan əvvəl aralarındakı ikitərəfli münaqişələri həll etməyə çağırıb: "Siz əmin olmalısınız ki, keçmiş münaqişələr Aİ-yə idxal olunmayacaq".

Prezident Mişel əlavə edib ki, Avropa İttifaqı Şurası növbəti iclasında genişlənməni müzakirə edəcək. Onun sözlərinə görə, Avropa Komissiyasının oktyabr ayında gözlənilən genişlənmə paketi gələcək üzvlərə bloka rəsmi üzv olmamışdan əvvəl bəzi Aİ təsisatlarında tam iştirakın faydalarını hiss etməyə imkan verə bilər.

Şarl Mişel Aİ-nin də genişlənməyə hazır olması üçün bəzi islahatlar həyata keçirməli olduğunu vurğulayıb.

Xatırladaq ki, Qərbi Balkan dövlətləri - Albaniya, Bosniya, Kosovo, Monteneqro, Şimali Makedoniya və Serbiya bloka qoşulma prosesinin müxtəlif mərhələlərindədir. Ötən il Aİ Moldova və Ukraynaya namizəd statusu verib. Gürcüstan da sözügedən statusu almağı gözləyir.

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

## Bayrağımızı təhqir edən ermənilər Laçın SBM-də saxlanıldı

**Azərbaycan bayrağını təhqir edən 3 erməni Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılıb.**

Musavat.com "Trend"ə istinadən xəbər verir ki, 2021-ci ildə Azərbaycan bayrağını təhqir edən şəxslərdən üç nəfəri saxlanılıb.

Xatırladaq ki, 2021-ci ildə bəzi kütləvi informasiya vasitələrində və müxtəlif sosial media səhifələrində erməni futbolçuların Azərbaycan Dövlət Bayrağı barədə təhqiredici hərəkətlər etmələrini əks etdirən videogörüntülər yayılmışdı.

Həmin zaman faktla bağlı Azərbaycan Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 283.2.3 (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 324-cü (Azərbaycan Respublikasının Dövlət Bayrağı və ya Azərbaycan Dövlət Gerbi barədə təhqiredici hərəkətlər) maddəsi ilə cinayət işi başlanmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə olunub.

Azərbaycan tərəfi dəfələrlə qanun pozuntuları törətmiş ermənilərin bağışlana biləcəyi ilə bağlı humanist açıqlamalar verib. Ehtimal olunur ki, Azərbaycan dövləti növbəti dəfə humanist yanaşma sərgiləyərək saxlanılan şəxslərin gənc və idmançı olduqlarını nəzərə alaraq inzibati qayda məsuliyyətə cəlb edə bilər.

İstənilən halda isə Azərbaycan bayrağını təhqir edən və azərbaycanlılara qarşı nifrət, düşmənçilik ruhunda olan şəxslərin Azərbaycan ərazisində yaşaması qeyri-mümkündür və onlar mütləq qaydada Ermənistana deportasiya olunmalıdır.

Laçın SBM-də saxlanılan üç ermənin cəza müddəti bəlli olub.

"Caliber" mənbələrinə istinadla yazır ki, onlar öz əməllərindən çox təəssüfləndiklərini dilə gətiriblər.

Hüquq-mühafizə orqanlarından bildirilib ki, gənclər təxminən 10 gün həbsdə qalacaq.

"Bizdə heç kim onları uzun müddət həbsdə saxlamağa, uzun müddət bu parazitləri yedizdirməyə hazırlaşmır. Axı Bakı artıq hərbi cinayətlər törətməyənlərin amnistiyasının mümkünlüyünə eyham vurub. Amma onlar öz dərslərini alacaqlar. Cəza müddətindən sonra Ermənistana deportasiya olunacaqlar", - deyə bildirilib.

# Prezident Laçından növbəti xəbərdarlığını etdi - "Ancaq irəli..."

## Deputat: "Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər ermənilər və bölgə üçün yaxşı olacaq"

**"Bu gün biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik".**

Bu sözləri Prezident İlham Əliyev Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində çıxışı zamanı deyib: "Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki biz qurub-yaradan xalqıq. Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda onu göstərir ki, bu torpaqların sahibləri bizik. Ermənistan 30 il ərzində torpaqlarımızı işğal altında saxlayıb. Azad edilmiş ərazilərə hər gələn insan öz gözləri ilə erməni vəhşiliyinin təzahürlərini görür. Əgər bu torpaq onlara məxsus idisə, nə üçün şəhərlər, kəndlər viran qoyulub, nə üçün bütün tarixi abidələr dağıdılıb? Onlar da bilirdilər ki, gec-tez biz gələcəyik, biz də bilirdik ki, gec-tez biz gələcəyik. İşğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərdə mən deyirdim ki, gün gələcək biz öz bayrağımızı Laçında, Şuşada, o vaxt işğal olunan digər şəhərlərdə qaldıracağıq", - dövlət başçısı əlavə edib.

Prezident bununla başda Fransa olmaqla, Azərbaycanın bədxahlarına, separatçı rejimə gizli və aşkar dəstək verən, təxribatlara sövq edən və bununla rəsmi Bakını iradəsindən döndərə biləcəkləri xülyasına qapılan bütün ölkə və təşkilatlara açıq mesaj vermiş oldu.

Qərəzli və Azərbaycana təzyiqlər göstərmək istəyən qüvvələr bu xəbərdarlıqdan hansı nəticələri çıxaracaqlar? Çıxarmasalar nə baş verə bilər?

Siyasi şərhçilərin fikrincə, Ermənistanın "TIR şousu"na Fransanın qoşulacağı barədə xəbərlərin yayılması onu deməyə əsas verir ki, ermənilər kimi havadarları da nəticə çıxarmırlar. Nəticə çıxarmamaq sonda Ermənistana, Qarabağdakı silahlı ermənilərə ağır başa gələcək. 2020-ci ilə qədər də İlham Əliyevin xəbərdarlıqlarından nəticə çıxarmırdılar. Aqibətləri 44 gündə bəlli oldu. 44 günlük müharibədən sonra da Azərbaycan Prezidenti sülh çağırışları edib, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmət edilməsi barədə çağırışlar edib. Ermənilərə bu çağırışlardan nəticə çıxarmağın onların gələcəyi üçün də vacib olduğu xatırladılıb. Nəticə yenə də çıxarılmayıb. Ona görə də keçən ilin sentyabrında Ermənistanın təxribatına sərt cavab tədbiri görüldü. Həmçinin Azərbaycan Ordusu öz ərazilərimizə aid bir sıra vacib yüksəklikləri azad etdi, keçən il Laçın şəhəri, Zabux kəndi azad edildi, bu il aprelin 23-də Laçın yolunda Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəmizi qurduq. Ermənistan və havadarları bütün bunlardan nəticə çıxarmalıdırlar. Birdəfəlik bilməlidirlər ki, Azərbaycanın dövlət başçısının sözləri söz xatirinə deyilən fikirlərdən deyil. Azərbaycan Prezidenti dediyini edir. Aprelin 23-dək ermənilər və havadarları elə düşünürdülər ki, Azərbaycanın Laçın yolu ilə bağlı xəbərdarlıqları reallaşdırılmayacaq. Ancaq onlara sübut olundu ki, bu xəbərdarlıqlar boşuna edilmir. Ermənilər və havadarları unutmasınlar ki, 2020-ci ilə qədər Azərbaycan dövlətinin lideri onlara xəbərdarlıqları daha uzaqdan edirdi, torpaqları işğalda saxlanan dövlətin başçısı olaraq edirdi, indi Laçından, Şuşadan edir, qalib ölkənin başçısı olaraq edir.

**Milli Məclisin deputatı Hikmət Babaoğlu** "Yeni Müsavat"a bildirdi ki, avqust ayının 26- da işğaldan azad edilmiş Laçın şəhərində "Laçın Şəhəri Günü" tədbirinin keçirilməsi ölkəmizdə yeni bir ənənənin başlanğıcı oldu. Bu ənənə hər il milli yaddaşımızın yenilənməsi, gənc nəsillərə tariximizin əyani əsaslarda öyrədilməsi olduğu kimi, həm də torpaqlarımızı 30 il işğal altında saxlayan Ermənistana və onun himayədarlarına verilən göz dağı olacaq: "Tədbirdə çıxış edən Müzəffər Ali Baş Komandanımızın nitqi də elə bu konseptual əsaslarda qurulmuşdu. Azərbaycan Prezidenti torpaqlarımızın işğaldan azad edilməsinin beynəlxalq hüquqa, haqqa və ədalətə əsaslandığını dilə gətirərək qeyd etdi ki, bu gün biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Səsləndirilən bu fikirlər əslində Azərbaycan Ordusunun gücünün, döyüş qabiliyyətinin və Azərbaycanın suveren hüquqlarını müdafiə etmək qabiliyyətində olmasının göstəricisidir. Yəni bu gün dünyada beynəlxalq hüququn gücü yoxdursa, Azərbaycan Ordusu öz gücü ilə öz hüququnu təmin edə biləcək bir gücdür. Bunu dostların da, düşmənlərin də bilməsi və bu güclə hesablaşması lazımdır. Ona görə də Prezident İlham Əliyev bir daha xatırlatdı ki, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də ermənilər və bölgə üçün yaxşı olacaq. Bu fikirlər əslində xatırlatmadan daha çox bir xəbərdarlıq idi. Özü də təkcə Ermənistana deyil, həm də Ermənistanı sülhə doğru addım atmağa qoymayan havadarlarına. Belə havadarların antisülh mövqeyinin nələrlə nəticələnəcəyi isə əslində Ermənistanı narahat etməlidir. Çünki 44 günlük müharibəni daha qısa müddətdə başa çatdırmaqdan İrəvanı yayındıranlar Ermənistanın itkilərini dəfələrlə artırmaqla faktiki olaraq dövlət iflası səviyyəsinə gətirib çıxardılar. Halbuki Azərbaycanın humanist mövqeyi sayəsində onlar belə acı məğlubiyyətdən yayına bilər, Azərbaycanın şərtlərini qəbul edərək sülhə doğru addım ata bilərdilər. İndi isə həmin havadarlar Ermənistanı sülh imzalamağa qoymurlar, ya da yalançı vədlərlə BMT TŞ-də hansısa qətnamə əldə edəcəklərinə söz verirlər. Çox keçmədən isə Ermənistan başa düşəcək ki, yenə də hansısa neokolonistin, yaxud cənub qonşusunun molla rejiminin tələsinə düşüb. O zaman indiki şərtlərlə sülh imzalamağı gündüz çıraqla axtaracaq, ancaq tapa bilməyəcək. Ermənistana və onun havadarlarına verilən ismarış bu idi".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov bildirdi ki, Prezident İlham Əliyevin Laçından verdiyi mesaj həm də ondan ibarət idi ki, biz öz torpaqlarımıza qayıtmışıq, qurub yaradırıq və bizim iradəmizə heç bir qüvvə təsir edə bilməz:** "Bütün bunlar çox önəmli mesajlardır. Çünki 30 illik işğal dövründə Ermənistan arxasında duran qüvvələrin dəstəyi ilə Azərbaycan torpaqlarını işğalda saxlayırdı. Azərbaycanın işğala son qoyulması çağırışlarına əhəmiyyət verilmirdi. İndi isə nəticələr göz qabağındadır. Bu gün yenə də bəzi xarici qüvvələr Ermənistanı silahlandırır, onu qızışdırır. Azərbaycan isə qurucluq işlərini davam etdirir, sülh istədiyini bəyan edir, eni zamanda onu da bəyan edir ki, bundan sonra da heç bir qüvvə bizi haqlı mövqeyimizdən döndərə bilməyəcək. Ermənistanda baş qaldıran revanşizm tamamilə boş xəyallardır. Bizə qarşı Ermənistanın və havadarlarının hücumları yenə də iflasa uğrayacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

# Eks-deputat 1 milyonluq iddia ilə "Yeni Müsavat"a hücuma keçdi

## Hacı Salayev gizli kazino haqda iddiaların tirajlanmasından narazıdır

**Eks-deputat Hacı Salayev "Yeni Müsavat"ı məhkəməyə verib. Xətai Rayon Məhkəməsinə təqdim etdiyi iddia ərizəsində Hacı Baba oğlu Salayev ərz edir ki, barəsində yazılanlar işgüzar nüfuzuna, şərəf və ləyaqətə toxunub, odur ki, müdafiəsinə qalxıb və "Yeni Müsavat"dan nə az, nə çox - 1 milyon manat tələb edir. Eks-deputatın arşını da, iştahası da pis deyil. Amma bir məsələni də Azərbaycanda milyonlar sahibinə çevrilən, milyonlarını da xaricə daşıyan Hacı Salayevin diqqətinə çatdıraq.**

"Yeni Müsavat"a qarşı milyonluq tələblərlə hazırda həbsdə olan "Baku Steel Company" MMC-nin (poladəritmə zavodu) Müşahidə Şurasının keçmiş sədri Rasim Məmmədov, başının dəstəsi - 9 generalla bərabər eks-müdafiə naziri Səfər Əbiyev, keçmiş nəqliyyat naziri Ziya Məmmədov, sabiq PA rəhbəri Ramiz Mehdiyev, onlardan əvvəl mərhum akademik Cəlal Əliyev çıxış etmişdilər. Hətta zamanında məhkəmələr onların istəyinə uyğun qərarlar vermişdi. Amma bu adamlar milyon əvəzinə nə aldılar? Azərbaycan cəmiyyətinin sərt təpkisini. Yemədilər və getdilər.

Hacı Salayev də bu iddiası ilə özünü mətbuata, bu gün düşmənlə üz-üzə dayanan, informasiya müharibəsində ön sırada olan bir media quruluşuna qarşı müharibə cığırına çıxıb. Olsun!

"Yeni Müsavat" qəzetinin hüquqşünası Vaqif Hüseyn deyib ki, Hacı Salayev "Yeni Müsavat"la yanaşı Media Qrupuna daxil olan Minval.info saytında 7 iyul 2023-cü il tarixli "Eks-deputatın hotelində gizli qumar təşkil olunur - SENSASİON İDDİA" başlıqlı məqaləyə görə işgüzar nüfuzunun pozulduğunu iddia edir. Buna görə Hacı Salayev hətta Minval.info və "Yeni Müsavat" qəzetindən hərəsindən 500 min olmaqla, ümumilikdə 1 milyon manat təzminat tələb edib. Hazırda iş Xətai Rayon Məhkəməsinin hakimi Aygün Həsənovanın icraatındadır. İlk hazırlıq iclası sentyabr ayının 19-da keçiriləcək.

Vaqif Hüseynin sözlərinə görə, iddia ərizəsində göstərilənlərin heç bir əsası yoxdur və məhkəmədə bu hüquqi yollarla sübuta yetiriləcək. O ki qaldı keçmiş deputatın böyük məbləğdə təzminat tələb etməsinə, görünür, mətbuatı bu yolla susdurmaq cəhdi və şəkəri hələ də bəzi şəxslərdə qalıb.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Nəcməddin Sadıkovun həbsinə hazırlıq gedir - ilginc iddialar

## Müdafiə Nazirliyində mənimsəmələrin əsasən onun göstərişlərinə uyğun gerçəkləşdiyi təsbit olunub

**"Həbsə alınan maliyyəçilər onlara yuxarıdan verilən göstərişləri yerinə yetiriblər. Çox istərdim ki, məhkəmədə bu faktlar açıqlansın". Bu sözləri "Yeni Müsavat"a hərbi ekspert Üzeyir Cəfərov Müdafiə Nazirliyinin 3 maliyyəçi polkovnikinin məhkəməsi ilə bağlı deyib. Onun sözlərinə görə, heç bir maliyyəçi yuxarı rəisinin icazəsi olmadan özbaşına qərar qəbul etmək, pul əməliyyatları həyata keçimək səlahiyyətində olmayıb: "Məhkəmənin də başlanmasını, keçirilməsini səbrsizliklə gözləyirəm. Hesab edirəm ki, qanunsuz göstəriş verənlər kənarda qalıb, onlar da məsuliyyəti bölüşməlidir. Bu, ya nazir, ya Baş Qərargah rəisi olacaq".**

Hərbi ekspert bildirib ki, həbsdə olan 3 polkovnik məhkəmədə həqiqəti desələr, çox acınacaqlı mənzərə üzə çıxacaq. O, Müdafiə Nazirliyində keçirilən məlum əməliyyat ərəfəsində nazirin maddi-texniki təminat üzrə müavini, general-leytenant Fuad Məmmədovun müəmmalı ölümünə də toxunub: "Fuad Məmmədovun ölümü bəziləri üçün müəmmalı qala bilər, mənim üçünsə müəmmalı deyil. Bəzi məsələləri Fuad Məmmədova yükləmək istəyirdilər, o da üzərinə götürmək istəmədiyinə görə ürəyi dözmədi, səhər saatlarında qəfil ürəktutmasından dünyasını dəyişdi. Ora elə bir bataqlıdır ki... Qazaxıstan çölləri necədirsə, orada da elə bir vəziyyətdir".

**Üzeyir Cəfərov deyib ki, Hərbi Prokurorluq tərəfindən həbs olunan 3 polkovnikdən 2-ni şəxsən tanıyır**: "Bu adamlar "streloçnik" kimi həbsə alınıblar, balinalar isə kənarda qalıb".

Qeyd edək ki, Müdafiə Nazirliyinin mənimsəməyə görə həbs edilən vəzifəli şəxslərinin cinayət işi üzrə ibtidai istintaq az əvvəl başa çatıb. APA xəbər verir ki, cinayət işi materialları məhkəməyə göndərilib. Cinayət işinə Bakı Hərbi Məhkəməsində baxılacaq. Təqsirləndirilən şəxslər - Fikrət Mirzəyev, Mahir Şirvanov və Məlikməmməd Qurbanovun cinayət işləri ayrı-ayrılıqda icraata verilib. 2 polkovnikə - Fikrət Mirzəyevə və Məlikməmməd Qurbanova qarşı Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham irəli sürülüb. Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi polkovnik Mahir Şirvanova isə 179.4, 341.2.1 və digər maddələr ilə ittiham irəli sürülüb. Polkovnik Fikrət Mirzəyev nazirliyin Mənzil İstismar İdarəsinin, polkovnik Mahir Şirvanov Satınalmalar və Təchizat İdarəsinin, polkovnik Məlikməmməd Qurbanov isə Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi olub. Hər 3 polkovnik 2022-ci ilin əvvəlində həbs ediliblər. Polkovnik Fikrət Mirzəyev 2020-ci il iyun ayında MN-dəki vəzifəsindən çıxarılıb. M.Qurbanov 27.08.2019-cu il tarixində xidmət keçmənin son yaş həddi ilə əlaqədar olaraq ehtiyata buraxılıb. M.Şirvanov polkovnik M.Qurbanovdan əvvəl bu vəzifədə çalışıb.

"Yeni Müsavat" xəbər verir ki, ötən ilin fevralında Dövlət Təhlükəsizliyi Xidməti Müdafiə Nazirliyində əməliyyat keçirib və qurumun maliyyə sektorunda yüksək vəzifəli şəxslər külli miqdarda mənimsəmə ittihamı ilə həbs olunub. O zaman Müdafiə Nazirliyində iri maliyyə mənimsəmələrinin üstü açılıb. Maliyyə İdarəsinin rəisi Rafael Xəlilov, N saylı hərbi hissənin maliyyə şöbəsinin rəisi Fəzail Əliyev, Quru Qoşunlarının maliyyə idarəsinin rəisi Bayram Bayramov və maliyyə idarəsinin zabiti Əlizadə Vüsal Ədalət oğlu saxlanılıblar. Bu həbslər gerçəkləşərkən "Qafqazinfo" yazmışdı ki, keçirilən əməliyyat tədbirləri nəticəsində hərbi hissənin maliyyə şöbəsinin rəisi Sərkərov Fərahim Fazil oğlu da həbs edilib. Zabit 450 min manatı mənimsəməkdə ittiham olunub. Bundan başqa, Əlizadə Vüsal Ədalət oğlu məhkəmənin qərarı ilə həbs edilib. Zabit 1 milyon 800 min manat mənimsəməkdə ittiham olunub. Müdafiə Nazirliyinin Maliyyə idarəsinin rəisi Rafael Xəlilov 10 milyon manatı mənimsəməkdə ittiham olunub.

"Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, mənimsəmələrin sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkova uzanmasını təsbit edən bir çox faktlar mövcuddur. Mənimsəmələrin əsasən onun göstərişlərinə uyğun gerçəkləşdiyi təsbit olunub. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Mülki cəmiyyət, hüquq

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Vətəndaş cəmiyyəti sülh üçün nə iş görür? - indi ermənilərlə danışmaq olar...

Ermənistan və Azərbaycan QHT-ləri sülh mövzusunda Tiflisdə və başqa şəhərlərdə müzakirələr apara bilər; **Günel Səfərova:** "Anna Akopyanın müraciətinə imza atanları unutmuruq"

**Hazırda vətəndaş cəmiyyətinin qarşısında duran əsas vəzifələrdən biri də sülh danışıqlarına töhfə verə bilməkdir. Torpaqlarımız işğal altında olanda vətəndaş cəmiyyətinin bəzi üzvləri qarşı tərəflə müxtəlif platformalarda danışıqlarda iştirak edirdilər. Lakin cəmiyyət bunu birmənalı qarşılamadı. Çünki vəziyyətlə barışmaq kimi dəyərləndirilirdi. Heç bir mənası yox idi.**

Müharibədən sonra istər reinteqrasiya, istər Ermənistanın vətəndaş cəmiyyəti ilə sülh mövzusunda danışmaq olar. İndi ədalətsizliyə son qoymuşuq və üzbəüz oturub regionda sülh içində yaşamağın yollarını müzakirə etmək mümkündür. Əlbəttə ki, məğlub tərəfdə revanşist əhval hökm sürür, sülhdən çox orduya diqqət ayırırlar, sərhəddə atəşkəsi pozurlar, erməni xalqından, ziyalılarından da müsbət reaksiyalar gəlmir. Özəlliklə də Laçın yolu ilə bağlı başladılan süni kampaniya və bizə qarşı müxtəlif güclərin təzyiq vasitələrindən istifadə etməklə yaranan gərginlik sülh danışıqlarına zərbə vurmağa davam edir. Belə olan halda hər iki tərəfdən vətəndaş cəmiyyətinin sülh təşəbbüsləri ilə görüşlərə çağırış etməsinə ehtiyac var. Lakin son zamanlar azərbaycanlı pasifistlər, "No War" deyənlər özümüzü ittiham edən kampaniya başladıblar.

Azərbaycan dövləti vətəndaş cəmiyyəti institutlarının ölkə daxili ilə yanaşı, beynəlxalq müstəvidə də aktiv fəaliyyətində maraqlıdır. Bu məsələ 44 günlük Vətən müharibəsindən sonra daha da aktuallaşıb. Məsələ burasındadır ki, Azərbaycan Ermənistanla sülh şəraitində əməkdaşlığın inkişafına xüsusi diqqət ayırır. Ermənistanın vətəndaş cəmiyyətinin çox azsaylı nümayəndələri var ki, Azərbaycanla sülh barəsində danışsın. Belə fikir söyləyənlər isə ictimai təqiblərə, bəzən fiziki hücumlara məruz qalırlar. Onlara xəyanətkar deyilir və erməni siyasətçiləri onları "türk" adlandırırlar. Biz mesajlarımızı Ermənistan cəmiyyətinə çatdırmaq iqtidarında olmalıyıq. Bu baxımdan resurslar məhduddur. Ermənistanda ictimai mühitə hökumət tərəfindən ciddi nəzarət edilir və dediyim kimi, Azərbaycanla bağlı deyilən istənilən müsbət söz xəyanət hesab olunur. Bu səbəbdən, beynəlxalq təşkilatlar, xüsusilə də münaqişədən sonrakı dövrdə barışıq və münasibətlərin normallaşdırılması, habelə etimad quruculuğu tədbirləri sahəsində təcrübəsi olanlar daha fəal ola bilərlər. Bu işdə QHT-lərin rolu böyük ola bilər.

Günel Səfərova

**"Vətəndaş-Tədqiqat və İnkişaf" İctimai Birliyinin sədri Günel Səfərovanın sözlərinə görə, xüsusən 90-cı illərin sonlarından Azərbaycan-Ermənistan arasında sülh quruculuğu ilə bağlı müxtəlif beynəlxalq layihələr həyata keçirilib:** "Bunlar sərhədlərarası, gənclərarası, qadınların sülh quruculuğunda rolu və s. adlar altında həyata keçirilib. 44 günlük müharibədə isə məlum oldu ki, Tiflis, Varşava, Praqa və başqa şəhərlərdə keçirilən tədbirlərdə iştirak edən erməni "sülhsevərlər" Bakıya bomba atmaq çağırışları edirlər. Hətta bir çox beynəlxalq təşkilatlarda çalışan ermənilər açıq-aydın mülki əhalinin hədəfə alınması ilə bağlı statuslar yazır, Rusiyanı müdaxiləyə çağırırdılar. Ədalət qalib oldu və biz torpaqlarımızı qaytardıq. Bu müddətdə Azərbaycanda "No War" qrupu formalaşdı, daha dəqiq desək, formalaşdırıldı. Biz Anna Akopyanın müraciətinə imza atanları unutmuruq. Əlində silah Azərbaycan övladına tuşlanmış şəkillərlə poz verən Annanın əlacsız müraciətinə təəssüf ki, imza atan vətəndaşlarımız oldu", - deyə hüquq müdafiəçisi G.Səfərova saxta sülh platformasını xatırladır.

**Onun fikrincə, çox az sayda olan bu "No War" qrupu xüsusilə Qarabağın yenidən qurulması ərəfəsində fəallaşıblar:** "Fərq eləmir bu "Soros"dur, EED-dir, NED-dir, amma çoxunun məqsədi eynidir. Xüsusilə Avropa fondları və bir-başa Belçika mərkəzli təşkilatlar, Fransa maliyyəsi ilə yaradılmış təşəbbüs qrupları daha çox fəallaşıblar. Hələ ki ad çəkmirəm. Tarixi müstəmləkə siyasəti, müharibələrlə zəngin olan qoca Qərbin "No War" hərəkatını dəstəkləməsi kimi absurd addımların kökündə təhlükəsizliyə, stabilliyə qarşı niyyət durduğuna da əminik. Bizim bir qrup binəva da anlasın ki, Azərbaycana hücum edilmişdi, Azərbaycanın mülki əhalisi hədəfə alınmışdı, Azərbaycan torpaqları işğal edilmişdi. 5-10 nəfər ana dilimizdə güclə danışan beyni yuyulmuş, qrant köləsinin "No War" deyib Azərbaycanı aqressor kimi göstərmək istəyi nəyə hədəflənib? Sizi istifadə edən beynəlxalq qurumlar isə anlamalıdır ki, bu 5-10 nəfər milyon dəfə "No War" qışqırsalar da biz torpaqlarımızı azad edib, Qarabağı yenidən qururuq. Azərbaycan dövləti, sivil toplumu, vətəndaşları, gəncləri milli məsələdə güzəştə getmir. Bunu 44 gündə göstərdik".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU

# Niyə məhz Laçın yolu?..

**Hər şeydə bir məntiq olmalıdır. Ermənilər başa düşməlidirlər ki, keçmiş arxada qalıbdır, daha nəzarətsiz Laçın yolu olmayacaq. Ona görə də sual yaranır: Nə fərqi var? Laçın yolu, yoxsa Ağdam-Xankəndi yolu?**

Hüseynbala SƏLİMOV

Əgər Azərbaycana gəlib-gedən ermənilər, həm də onların yükləri Azərbaycanın keçid-buraxılış məntəqələrində müəyyən yoxlamalardan, prosedurlardan keçəcəksə, axı nə fərqi var, Laçın və yaxud Ağdam yolu?

Əgər erməniləri yanacaq sərfi və ya digər texniki məsələlər qayğılandırırsa, bunu da düşünmək olar. Belədə isə demək olar ki, öz ərazisinə haradan və necə keçməyi müəyyən etmək Azərbaycanın suveren hüququdur. Əgər nəzarətsiz keçid mümkündürsə, nəyə görə bizim insanlarımız, yük maşınlarımız Ermənistandan keçərək Naxçıvana gedə bilmirlər? Nəyə görə "humanist dünya birliyi" bu haqda fikirləşmir, axı Naxçıvan düz otuz ildir ki, blokadadır!

O ki qaldı bir az əvvəldə səsləndirdiyimiz suallara, ermənilər o qədər yalan danışırlar ki, axırda özləri də onlara inanmağa başlayırlar. Bəli, otuz ildir ki, onlar Laçın yolunu dünyaya Leninqradın blokadasında olduğu kimi, "həyat yolu", "humanitar dəhliz" kimi tanıtmışdılar. Əslində isə onlar Laçını da, Laçın yolunu da işğal etmişdilər. Belədə isə bir daha deyirik ki, dünyanın heç bir ölkəsinin ərazisinə nəzarətsiz gediş - gəliş mümkün deyil. Bunların daha bir dərdi də var. Əllərinə fürsət düşüb ki, Azərbaycana daha bir zərbə vursunlar, dünyanı inandırsınlar ki, Azərbaycan onları blokadada saxlayır. Dövlətlərin böyük bir hissəsi bu qəbildən olan erməni yalanlarına inanmasalar da "inananlar" da var: onlar ermənilərlə birlikdə Bakıya təzyiq edirlər ki, ermənilər üçün Laçın ərazisindən sərbəst, hər hansı yoxlanışsız keçid təmin edilsin.

Bu ölkələr çox gözəl başa düşürlər ki, keçmiş Dağlıq Qarabağa gediş-gəlişə nəzarət qoyulsa, bu, otuz illik erməni azğınlığının sonu olacaqdır, ermənilər daha Dağlıq Qarabağa silah-sursat daşıya bilməyəcəklər...

Odur ki, indi dəhlizlər məsələsi iki ölkə arasında ən əsas məsələdir. Maraqlıdır ki, bugünlərdə Rusiyanın baş naziri Mixail Mişustin erməni baş naziri Nikol Paşinyanla söhbətində bildirdi ki, onun ölkəsi Zəngəzur dəhlizinin tezliklə açılmasında maraqlıdır. Bəri başdan qeyd edək ki, ruslar bununla bölgədə qalmaq üçün daha bir "rıçaq" əldə edəcəklərini zənn edirlər. Amma Qərb bunun tamam əleyhinədir. Elə İrəvan da buna "hə" deməyə tələsmir.

Birincisi, ona görə ki, ermənilər - haylar daha Rusiyaya əvvəlki kimi inanmırlar. İkincisi, İrəvan fikirləşir ki, bölgədə Qərbə də nəsə verilməlidir ki, onların burada qalması təmin edilsin. Üçüncüsü, ermənilər bu yolla ərazilərində Qərblə Rusiya arasında balans yaratmağa cəhd edirlər.

Azərbaycan Zəngəzur dəhlizinin təhlükəsizliyinin ruslara verilməsinin əleyhinə deyil. Yaxın perspektivdə bununla razılaşmaq olar. Amma bir detalı unutmaq olmaz: ruslar olan yerdə həmişə maneələr, hətta təhdidlər olacaq, Unutmayaq ki, Zəngəzur dəhlizi rusların nəzarətinə verilsə, onlar həm də bizim yüklərə nəzarəti əllərinə keçirmiş olacaqlar - bu isə heç də adi məsələ deyil, çünki Zəngəzur dəhlizi bizə təkcə kartof, hətta ərzaq daşımaq üçün lazım deyil, bizim strateji əhəmiyyətli yüklərimiz də ola bilər...

Bəs proseslərin sonu necə görünür? Əksər siyasi təhlilçilər bu fikirdədir ki, hava barıt qoxuyur.

Amma düşünmürük ki, ciddi hərbi qarşıdurma olsun. Yaxın vaxtlarda İrəvanda mer seçkiləri olacaq. Üstəlik, sentyabrın ilk günlərində Soçidə Rusiya və Türkiyə prezidentləri də görüşməlidir.

Ermənilər hər iki olayın nə ilə bitəcəyini gözləyirlər. Xüsusən də İrəvandakı seçkiləri qeyd etmək lazımdır. Düzdür, bələdiyyə seçkiləri digər seçkilərlə müqayisədə bir o qədər də önəm kəb etmirlər. Amma unutmayaq ki, İrəvanı kim idarə edirsə, elə Ermənistanı da o, idarə edir. Həm də Nikol Paşinyan bu seçkilərdə özünə və rəhbərlik etdiyi siyasi cinaha ermənilərin münasibətini bilmək istəyir...

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

# Hikmət Hacıyevdən mühüm təklif - ermənipərəst siyasətçilər üçün beynəlxalq komissiya yaradaqmı...

## ABŞ nəşri arvadı erməni olan senator Bob Menendesi ifşa etdi, erməni lobbisinin əlinə baxan digər konqresmenlər də faş olunmalıdır; deputat və hüquqşünas rəyi

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ-ın "The New York Post" nəşrindən senator Bob Menendesin həyat yoldaşının mümkün qanunsuz hərəkətləri barədə çıxarış paylaşaraq ermənipərəst siyasətçilərin fəaliyyətinin daha da araşdırılmasına çağırış edib.**

"Yeni Müsavat" xəbər verir ki, Prezidentin köməkçisi sosial şəbəkədə yazıb: "Pul hər şeyi həll edir! ABŞ və Avropadakı bütün anti-Azərbaycan ermənipərəst lobbiçilər və siyasətçilər daha da araşdırılmalıdır". **H.Hacıyevin paylaşdığı "The New York Post"dakı xəbərin başlığında qeyd olunub:** "Senator Bob Menendesin arvadı ofisi federal araşdırma təhlükəsi ilə üz-üzə olduğunu etiraf etməzdən aylar öncə 400 min dollar qızıl külçə satıb". "The New York Post"un dərc etdiyi yazıda senatorun korrupsiya içində olduğu qeyd olunur və bu, təkzib olunmayan faktlarla göstərilib. Menendes qatı ermənipərəstdir və erməni lobbisi tərəfindən satın alınıb. Nəzərə çatdıraq ki, erməni lobbisinin maliyyəsi - dəqiq desək, verdiyi rüşvət hesabına Azərbaycana qarşı qarayaxma kampaniyaları təşkil edən və bu proseslərə ABŞ və Avropada qoşulan deputatların, məmurların sayı çoxdur. Onların bəziləri ötənlərdə ifşa edilib, faktlar ortaya qoyulub.

Sirr deyil ki, postmüharibə dövründə Azərbaycana qarşı böhtanların yeni dalğası başlayıb və erməni lobbisi bu işə milyardlar xərcləyir. Bu baxımdan cənab Hikmət Hacıyevin təklifi olduqca mühümdür: anti-Azərbaycan, ermənipərəst siyasətçilər ciddi şəkildə araşdırılmalıdır. Misal üçün, amerikalı konqresmenlərdən Adam Şiff xüsusən təftiş edilməlidir. Görünür, erməni lobbisi çirkli pullarla konqresmenləri ələ ala biliblər. Ən qəribəsi isə odur ki, bütün bu addımlar son nəticədə sülhyaratma prosesinə ciddi əngəl yarada bilər. Bəs Azərbaycan bununla bağlı beynəlxalq miqyasda hansı addımlar ata bilər? Bu yöndə bir komissiya, qurum yaratmaq və qlobal araşdırmalara başlamaq mümkündürmü?

**Deputat Elman Nəsirov** "Yeni Müsavat"a qeyd etdi ki, ABŞ-da təkcə seçki sistemi köhnəlməyib, lobbiçilik institutunda da korrupsiyanın leqallaşdırılması baş verib: "Sadəcə, ona hüquqi don geyindirilib. Amerikada 200-ə yaxın ermənipərəst konqresmen və senator var, Adam Şiff, Menendes kimilər başda olmaqla. Bu adamlar ermənilərin maraqlarına xidmət edirlər. Və heç bir qeyri-adi səbəb, yaxud mexanizm yoxdur. Necə deyərlər, burada "əl əli yuyar, əl də üzü" misalı işləkdir. Yəni pul alırlar, iş görürlər, başqa heç nə yoxdur. Bunun üçün Azərbaycan Diplomatiya Akademiyasının rektoru Hafiz Paşayevin "Bir səfirin manifesti" kitabını oxumaq kifayətdir. Orada aydın şəkildə göstərilir ki, senator və ya konqresmen olmaq üçün nə tələb edilir. Yəni iki şey lazımdır - seçici səsi və maliyyə. Ermənilər də həm seçici səsi təmin edirlər, həm də pul xərcləyirlər".

**E.Nəsirov hesab edir ki, nəticədə Birləşmiş Ştatların xarici siyasətinə kölgə salınır**: "ABŞ-ın Cənubi Qafqazla bağlı maraqları var. O baxımdan həmin ermənipərəst siyasətçilərin əməlləri Amerika mediasında da ifşa olur. Biz nə edə bilərik, biz də bir təhqiqat apara, jurnalist araşdırması ortaya qoya bilərik. Məsələn, Adam Şiff deyir ki, saçımı erməni bərbər düzəldir, yağı, qəndi erməni satıcıdan alıram. Yəni məsələyə bu dərəcədə bəsit yanaşır, etnik aspektdən baxır. Əgər senat seçilmək üçün ermənidən pul alırsansa, deməli, bunun adı rüşvətdir. O baxımdan "Bir səfirin manifesti" ilə tanışlıq bu məsələdə nələrin baş verdiyini bilmək üçün yetərlidir".

**Hüquqşünas Qulamhüseyn Əlibəylinin fikrincə, ermənipərəst siyasətçilər xarici ölkələrin vətəndaşları olduğuna görə hüquqi cəhətdən problemli məsələdir:** "Çünki başqa dövlətin siyasi xadimini təhlil etmiş oluruq. Amma ictimai cəhətdən mübarizə komissiyası yaratmaq olar. Misal üçün, korrupsiyaya qarşı beynəlxalq mübarizə şəbəkəsi ilə əməkdaşlıq edə bilərik. Ona görə də hüquqi yox, ictimai cəhətdən komissiya yaradılmasına zərurət var. Bununla düşmənin zəif cəhətlərini öyrənmiş oluruq".

**İsveçrədə yaşayan jurnalist Elbəyi Həsənlinin sözlərinə görə, ümumiyyətlə, Amerikanın konqresmenləri də, senatorları da açıq şəkildə müxtəlif iş adamlarından pul alırlar və bunun müqabilində onların maraqlarının müdafiəçisinə - lobbi xidmətçisinə çevrilirlər:** "Bu məsələnin mahiyyətini başa düşmək üçün mərhum Heydər Əliyevin bir açıqlamasına diqqət etməkdə fayda var. 4 oktyabr 1998-ci ildə "The New York Times" qəzetinin müxbiri Cefri Qoldberqin Amerikada səfərdə olan Azərbaycan Prezidentinə belə bir sual verir: "Amerikada korrupsiyanın hansı növünü görürsünüz?" Heydər Əliyev bu suala tarixi bir cavab verib: "Konqresmenlərdən soruşuram ki, Ermənistanla niyə belə yaxın münasibətləriniz var və onlar deyirlər ki, erməni diasporu bizə çoxlu pul verir. İndi bu, korrupsiyadır, ya yox?" "The New York Post" qəzetində yuxarıda adını çəkdiyimiz məqalədə də söhbət məhz bu kimi məsələlərdən gedir. Bəllidir ki, Menendesin erməni xanımı Nadine Arslanian ictimaiyyətə bir müddət özünü biznes-ledi kimi təqdim edib. Ancaq bu məqalədən aydın olur ki, Nadine Arslanianın maliyyə durumunda müəyyən problemlər var: "Qızıl külçələrin satışı 2020-ci ildə Menendeslə evlənməmişdən əvvəl maliyyə cəhətdən çətinlik çəkən, hətta evinin girov qoyulması ilə üzləşdiyi bildirilən Arslanian üçün əlamətdar maliyyə dönüşü oldu. Ancaq bu cütlük münasibətlərinin başlanğıcından bir neçə ay sonra Federal Təhqiqat Bürosunun istintaq araşdırmalarının mərkəzində yer aldı".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# "Putin nəinki xaricə getməkdən, hətta Rusiya daxilində hərəkət etməkdən belə ehtiyatlanır"

## **Siyasi şərhçi:** "Putin böyük texniki imkanları olan dövlətlərin ona qarşı qəsd hazırlayacağından ehtiyat edir, ona görə rahat yaşamaq imkanını xeyli dərəcədə itirib"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 4-də Rusiyaya səfər edəcək. "Yeni Müsavat" bildirir ki, bu barədə TASS diplomatik mənbələrə əsasən məlumat yayıb. Səfər çərçivəsində Soçidə Ərdoğanla rusiyalı həmkarı Vladimir Putin arasında görüş olacaq. Liderlərin xüsusilə "Taxıl sazişi"ni müzakirə edəcəkləri gözlənilir. Putinlə görüş ərəfəsində Ankara Ukrayna, ABŞ və AB ilə taxıl sazişi üzrə təmasları gücləndirib. "İşlər Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və Ticarət Nazirliyi vasitəsilə aparılır. Ərdoğan və Putin arasında aparılan danışıqlar ərəfəsində taxıl təşəbbüsünün həyata keçirilməsi ilə bağlı problemlərin aradan qaldırılması istiqamətində işlər intensivləşib", - məlumatda qeyd olunub.**

Rusiya Prezidenti Vladimir Putinin Rusiyaya avqustun sonlarında səfər edəcəyi barədə indiyə qədər bir neçə təkzib olunmayan xəbərlər yayılıb. Beləliklə, Rusiya Prezidentinin Türkiyəyə səfəri baş tutmadı, nəticədə Türkiyə Prezidenti Rusiyaya səfərə gedəsi oldu. Bir sıra yerli və xarici siyasi analitiklər hesab edir ki, Putinin Türkiyəyə səfərə gəlməməsinin səbəblərindən biri onun barəsində Beynəlxalq Cinayət Məhkəməsinin bir müddət öncə çıxardığı qərardır. Məlumdur ki, adıçəkilən məhkəmə Vladimir Putinin həbs olunması barədə qərar qəbul edib və dünya dövlətlərinin bir çoxu qarşısında bu qərarı yerinə yetirmək tələbi qoyulub. Putinin Rusiyadan kənara çıxmamasının səbəblərindən biri kimi xarici səfərlərinin onun təhlükəsizliyi baxmından riskli olmasına Kremldə yaranan əminlikdir. Siyasi analitiklər hesab edir ki, məhkəmə qərarı və təhlükəsizliyindən dolayı keçirdiyi narahatlıq Putinə Rusiya sərhədlərindən kənara çıxmağa maneələr yaradır.

Məsələ ilə bağlı **siyasi şərhçi Abutalıb Səmədov** "Yeni Müsavat"a şərhində bildirdi ki, Rusiya Prezidentinin Türkiyə səfəri haqqında məlumatlar bu il ərzində bundan əvvəl də bir neçə dəfə yayılıb. Sonradan bu səfərlər baş tutmayıb. Baxmayaraq ki, bu xəbərlər yayılanda Beynəlxalq Cinayət Məhkəməsi Vladimir Putinin həbs olunması haqda qərarı hələ qəbul etməmişdi: "Bu səbəbdən mən hesab edirəm ki, Putinin növbəti dəfə məhz Türkiyəyə səfərinin reallaşmamasının kökündə Beynəlxalq Cinayət Məhkəməsinin qəbul etdiyi qərar dayanmır. Digər bir çox ölkələrə səfərə gedə bilməməsində isə bu qərarın da təsiri şübhəsizdir. Putin yaxşı başa düşür ki, dünyada onu həbs eləməyəcək bir neçə dövlət varsa, onların öndə gedənlərindən biri məhz Türkiyədir. Putin Ərdoğana güvəndiyini dəfələrlə bəyan edib və o, Türkiyəyə səfər etsə belə, Türkiyə dövləti onu həbs etməzdi. Putinin Türkiyəyə səfər etməməsinin, eləcə də hətta Rusiyanın özünün daxilində son dərəcə az hərəkət etməsinin kökündə həyatına təhlükə ilə bağlı keçirdiyi qorxular dayanır. Vladimir Putin nəinki xaricə getməyə, hətta Rusiya daxilində hərəkət etməyə də ehtiyat edir, nadir hallarda qısa müddətə yerləşdiyi təhlükəsiz yerdən kənara çıxmağa çalışır. Bəzən mətbuat kənara çıxanın Putinin özü olub-olmadığını da şübhə altına alan iddialar səsləndirir. Bu səbəbdən hesab edirəm ki, Rusiya liderinin Türkiyəyə səfərinin də təxirə salınmasının əsas səbəbi onun həbs olunması ilə deyil, təhlükəsizliyi ilə bağlı keçirdiyi narahatlıqlardır. Bu məsələ isə şübhəsiz Türkiyədən qaynaqlanmır və Türkiyəyə etimadsızlıqdan söhbət getmir. Dediyimiz kimi, Putin hətta öz ölkəsinin daxilində səfərləri minimuma endirib".



**Siyasi şərhçi hesab edir ki, bu narahatlıqlar hələ uzun müddət davam edəcək. Nə qədər ki, Ukrayna müharibəsi bitməyib, Ukraynada dinc insanların qanı tökülür, Ukrayna hər gün Rusiya tərəfindən darmadağın edilir, Putin Ukrayna üçün bir nömrəli hədəfdir və o da bu qorxunu yaşamaq məcburiyyətindədir:** "Üstəlik, Putin də yaxşı dərk edir, dünyada da kifayət qədər reallığı dərk edənlər var ki, Ukrayna və Rusiya arasında ədalətli sülhün imzalanmasında ən böyük maneə Vladimir Putinin özüdür və onun hakimiyyətdən hansısa formada uzaqlaşdırılması məsələsi dünya kütləvi informasiya vasitələrində müzakirə olunur. Gəlinən qənaət də bundan ibarətdir ki, Putinin dinc şəraitdə hakimiyyətdən uzaqlaşdırılması qeyri-mümkündür və onun hakimiyyətdən kənarlaşdırılmasının yeganə yolu onun fiziki cəhətdən aradan götürülməsidir. Təbii ki, bu da onu qorxudur və səfərlərdən çəkindirir. Putin çox böyük texniki imkanları olan dövlətlərin ona qarşı qəsd hazırlayacağından ehtiyat edir. Ukraynanın gün-gündən artan dron hücumları da onu düşünmək və Rusiya sərhədlərindən kənara çıxmamaq məcburiyyətindən qoyur. Bütün bunlara görə də Putin rahat yaşamaq imkanını xeyli dərəcədə itirib. Ona görə də hələ çox səfərlədən imtina etmək məcburiyyətində qalacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Trampın qızılcası

Zamin HACI
zaminhaci@gmail.com

**Müəllifi, deyəsən, Əbülfəz Elçibəy olan bir aforizm vardır: "Hər siyasətçi üçün həbsxana qızılcadır, mütləq başına gəlməlidir". Bizdə vaxtaşırı hansısa siyasini, müxalifətçini qazamata salanda işlədilir. Halbuki uğursuz, qeyri-elmi yanaşmadır. Rəhmətlik bəyin tibbi biliklərinin zəifliyini göstərir.**

Qızılcaya hər kəsin mütləq, həyatı boyunca yoluxacağı deyə bir fakt, prosedur, qayda yoxdur. Qızılca kəskin virus xəstəliyidir, qədimlərdə - vaksinasiya, dərman olmayan zamanlarda yüz minlərlə insanın ölümünə səbəb olurdusa, indi körpələri 6-9 aylığından peyvənd edirlər, vəssalam. Ta həmin uşağın ömrü boyu qızılcaya yoluxmaq ehtimalı sıfıra bərabərdir. Sadəcə, bəzən kasıb ölkələrdə vaksinləşmə düzgün, vaxtında aparılmır, yaxud antipeyvənd hərəkatının nümayəndəsi olan heyvərələrin günahı, propaqandası üzündən ("Hamısı Bill Geytsin zibilləridir" şüarıyla) hansısa dövlətlərdə uşaqları peyvənd eləmirlər, nəticədə qızılca epidemiyası baş verir. Azərbaycanda 2003 və 2005-ci illərdə kiçik miqyasda qızılca epidemiyaları olub.

Sözümü ona gətirirəm ki, qızılcaya yoluxmaq mütləq olmadığı kimi, türməyə düşmək də siyasətçi üçün vacib deyil. Olmamalıdır. Olursa da, bunu müti, fatalist qarşılamaq lazım deyil.

Lakin ta aforizm varsa, həyatımızı ona uyğun qurmalıyıq. Ata sözünə əməl elədiyimiz kimi. Məsələn, "qızını döyməyən dizinə döyər" kimi ata sözümüz var, ona görə bütün qız ataları çalışırlar vaxtlı-vaxtında qızlarını təpiyin altına salsınlar. Yaxud deyir el üçün ağlayan göz kor olar. Sonra da tuturlar aktyorun yaxasından, problemlərin həllini istəyirlər. Qardaşım, adam kor olmaq istəmir! Əl çəkməliyik.

Xülasə, Allah bəyə rəhmət eləsin, necə deyərlər, igid ölər, sözü qalar. Bugünlərdə həmin yuxarıdakı sözün ABŞ-da sınaqdan çıxdığını gördük: Donald Trampı bir neçə dəqiqəlik də olsa türməyə saldılar. 200 min dollar girov qoyub çıxdı. Türmədə sənədləşmə üçün çəkilən fotosunda ABŞ-ın eks-prezidenti qızarmış gözlər, sarı saçlar və pörtmüş sifətlə elə kəskin baxırdı, sanardın həqiqətən qızılcaya yoluxubdur.

Burada bir haşiyə çıxım. Trampı Corciya ştatında seçki saxtakarlığında ittiham edirlər. Sənədləri əkişdirmək, biznesdə saxtakarlıq, zənənləri zorlama-filan suçları, deyəsən, başqa ştatlardakı məhkəmələrin ixtiyarındadır. İttihamnaməyə görə Donald müəllim seçicilərin səslərini saxtalaşdırıb prezident olmaq istəyibdir. (Bu yerdə Məzahir müəllim bığaltı qımışır. Bəzən bığaltı qımışmaq üçün bığın olması zəruri deyil).

Cəmi 20 dəqiqəlik dustaq həyatı Trampa 10 milyon dollara yaxın pul qazandırdı. İşbaz amerikalılar Trampın həmin dustaqlıq fotosunu köynək, çanta, fincan, şapka kimi suvenirlərin üstünə çəkib satdılar, seçki kampaniyası fonduna kalan vəsait yığıldı. Bəlkə də Tramp növbəti seçkidə Baydenin qabağına "AUE- jizn voram" şüarı, "Dolya vorovskaya" mahnısıyla çıxdı. Faktiki Amerikanın lotu aləminin krallarından biridir. Əsl bizim adamdır. Lotu Bəxtiyar, Masallı Mamed, Sabirabadlı Hikmət, Lotu Quli, Rövşən Lənkəranski yolunun davamçısıdır. Bu dədiqə Tramp türmə həyatından kitab yazsa, "Qanun" nəşriyyatında çap etdirsə bir dənəsi də köşkdə qalmaz, hamısı satılar. Xalqımız oğru aləminə böyük hörmətlə yanaşır, onları dəyərli ziyalılarımız sayır, sağlığında başına, öləndə qəbir daşına and içir.

Hazırda Donald müəllim Respublikaçılar Partiyasının prezidentliyə namizədləri arasında ən çox səs yığır, haradasa 50-60 faiz. Böyük ehtimal elə onun namizədliyi üzərində dayanacaqlar.

BMT TŞ üzvü, dünyanın fövqəldövləti kriminal keçmişli bir adama bu qədər rəğbət bəsləyirsə, üçüncü dünya ölkələri niyə aydan arı, sudan duru olmalıdır?

Qlobal sual bu dəqiqə budur.

# Xankəndi erməniləri Bakı ilə danışığa rusla gəlmək istəyir - separatçılardan sərsəm iddia...

## Araikin "şeytan yuvası" gülləbaran edildi: separatçılar yeni "taktika"nı işə salıblar - birbaşa görüşlərdən imtina edərək vasitəçi axtarırlar və Rusiyaya üz tuturlar; ekspertlərin fikrincə, başıpozuq rejimin başının gülləsi çatmır

**Qarabağda sülhməramlıların müvəqqəti nəzarətindəki ərazidə mövcud olan qanunsuz silahlı dəstələr, separatçı "qurum" bugünədək neytrallaşdırılmayıb. Əksinə, faktlar sübut edir ki, sülhməramlı kontingent onlara dəstək verməkdədir.**

10 noyabr üçtərəfli bəyanatın tələblərinə görə qanunsuz rejimi məhz silahlı qüvvələr zərərsizləşdirməli, tərk-silah etməli idi. Azərbaycan son aylarda separatçılarla kifayət qədər sərt davranır, eyni zamanda reinteqrasiya üçün də bütün mümkün təklifləri edir. Ancaq separatçıların davranışı sübut edir ki, onlar birbaşa danışıqlardan qaçırlar. Son olaraq onlar yeni "taktiki hiylə"yə əl atıb.

Belə ki, Qarabağdakı separatçılar rəsmi Bakı ilə görüş təşkil etmək üçün Rusiyaya müraciət etmək istəyir. Bu haqda separatçıların "dövlət naziri" Qurgen Nersisyan məlumat verib. O qeyd edib ki, görüş Rusiya sülhməramlı qüvvələrinin yerləşdiyi yerdə və ya üçüncü tərəfin iştirakı ilə keçirilə bilər. Bundan əvvəl separatçılar rəsmi Bakının görüş təkliflərini qəbul etməyib. Bir müddət əvvəl də oyuncaq qurum Xankəndi və Bakı arasında gözlənilən danışıqlarla bağlı yayılan xəbərə oxşar münasibət bildirmişdi. "Qeyd edirik ki, Azərbaycan ərazisində, xüsusən də beynəlxalq vasitəçilərin iştirakı olmadan keçirilən istənilən görüş, xüsusilə BQXK-nın mandatı altında olan Vaqif Xaçatryanın Rusiya sülhməramlılarının iştirakı ilə oğurlandığını nəzərə alsaq, kifayət qədər böyük risklər ehtiva edir" - separatçı qurum bu sərsəm iddia ilə çıxış etmişdi". Yəni onları da həbs gözləyir.

Paşinyan da Bakı-Xankəndi dialoqunda beynəlxalq mexanizm ideyasını dövriyyəyə buraxır. Lakin nə erməni baş nazir, nə Xankəndidəki təlxək yığını dəfələrlə bəyan etdiyimiz mövqeni anlamaq istəmirlər: bu iş daxili məsələdir, kənar müdaxilə yolverilməzdir və üçüncü tərəf iştirak edə bilməz. Əslində rusların dialoqda iştirak etməsi təklifi elə Moskvadan gələn təlimata oxşayır. Sadəcə, həm Kremlə, həm də Xankəndidə himayə etdiyi dəstəyə sərfəlidir. İrəvan da bu məsələdə istər-istəməz fərqli rəy bildirmir. Amma Paşinyan beynəlxalq mexanizm dedikdə, Bakı ilə Xankəndi danışıqlarında daha çox Avropa Birliyini vasitəçi kimi arzulayır. Amma hər hansı dövlət Azərbaycana açıq şəkildə kimsə demir ki, dialoq prosesində üçüncü tərəf də olmalıdır. Belə aydın olur ki, ermənilər özlərini idarə edə bilmirlər və birbaşa danışıqlardan birmənalı imtina edir, vasitəçi axtarışındadırlar. Xüsusən də separatçıların ən böyük dayağı və ümidi Rusiyadır. Bəs sonuc nə ola bilər? Nersisyanın dediyi kimi, Qarabağdakı rus generalı Lentsovun iştirakı ilə müzakirələr aparıla bilərmi?

Yada salaq ki, martın 1-də bu formatda Xocalıdakı rus qərargahında belə görüş olmuşdu. Sonra Prezident Administrasiyası Bakını və Ağdamı təklif etdi, erməni icması adından isə qondarma rejim rədd cavabı verdi. Sonrakı prosesdə isə məlum oldu ki, Yevlaxda görüş razılığı olub. Hətta Rusiya bunu təsdiqlədi. Azərbaycan XİN də açıqladı ki, bir gün qalmış ermənilər anlaşmanı pozublar və Yevlax toplantısı baş tutmayıb. Həmçinin Ağdam-Xankəndi yolunun açılması da razılaşdırılıbmış. İndi isə qondarma rejim liderinin yığıncaqda bu məsələləri müzakirə etdiyi xəbərləri yayılıb. Onun köməkçisi də faktı təsdiqləyib və bildirib ki, Araik özü aydınlıq gətirəcək. Lakin bir yandan da separatçı administrasiya üçün vəziyyət qəlizləşir. Avqustun 28-də yayılmış xəbərlərə və video görüntülərə əsasən, separatçıların "hökumət evi"nə silahlı basqın ediblər. Hücumun məqsədi separatçıların rəhbəri Araik Arutyunyandan "humanitar böhranın həlli"ni tələb etmək olub. Basqın zamanı atəş səsləri də eşidilib. Bu faktın özü də mərkəzi hakimiyyətə tabe olmayanların sonunu yaxınlaşdırır... Ümumiyyətlə, son üç il ərzində separatizm Rusiyanın hərbi-siyasi dəstəyi ilə mövcudluğunu saxlaya bilib. Fransa, ABŞ, İran, hətta Kanada kimi ölkələr isə fərqli rakursdan separatizmə dəstək göstəriblər. Bax, bu "status-kvo", yəni separatçıların silah daşıması, yeni təmas xətti yaratmaq səyləri, görüşlərdən yayınmaları Azərbaycana iri və iti addımlar atmağa əsas verməkdədir.

**Təhlilçi Asif Nərimanlıya görə, Xankəndi, Xocalı və Xocavənd siyasi və hüquqi olaraq həll edilib, indi sonuncu - bu ərazilərdə mərkəzi hakimiyyətin bərpası mərhələsi başlayır:** "Ağdam maşrutunun açılması, ki bunun alternativi yoxdur, bu istiqamətdə həlledici addımlardan olacaq. Qarabağdakı separatçılar 2 sentyabr tarixində qondarma "artsaxın müstəqillik günü"nə hazırlaşır: analoji hazırlıq Ermənistanda da aparılır; "blokadada mübarizə aparan xalq" görüntüsü yaradacaq və "azadlıq uğrunda mübarizəni" nümayiş etdirəcəklər. Bu, nəticə olaraq heç nəyi dəyişdirmir, hərçənd Azərbaycan ərazisində hələ də davam edən "dövlətcik" oyunlarına qarşı elə sentyabrın 2-də praktiki addımın atılması da separatizmin ləğvinin başlanması baxımından əhəmiyyətli olardı".

**Təhlükəsizlik eksperti İlham İsmayıl isə hesab edir ki, siyasi proqnozlar hava proqnozuna bənzəmir, çox vaxt əks proseslər baş verir və ona görə də Azərbaycan bugünkü reallığı dəyərləndirib, ləngimədən Xankəndidə separatçı rejimin varlığına son qoymaq üçün praktik siyasi, hərbi variantlara start verməlidir. Onun sözlərinə görə, Laçın yoluna tətbiq olunan məhdudiyyətə baxmayaraq, ermənilər güzəştli addımlar atmağa tələsmirlər, çünki özlərinin etirafına görə, Rusiya helikopterləri hər gün minimum tələbatı ödəyən qida və tibbi məhsullar daşımaqda davam edirlər:** "Rusiya erməni silahlı qüvvələrini də çıxarmır. Deməli, siyasi yolla çıxmayan hərbi qüvvənin hərbi yolla çıxarılacağı xəbərdarlığı gündəmə gətirilməli və bu iş ilin sonunadək bitməlidir. Bu məsələ Xankəndi rejiminin fəaliyyətinə son verilməsinin və Azərbaycan dövlət strukturlarının nəzarətinin Xankəndində bərpa edilməsinin başlanğıcı deməkdir. 2024-cü ildə isə keçmiş Dağlıq Qarabağda yaşamış və etnik təmizləməyə məruz qalmış azərbaycanlıların doğma yurdlarına qayıdışı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nəzarəti ilə həyata keçirilməlidir. Biz Xankəndi rejiminə son verəcək siyasi-hərbi fəaliyyətə üstünlük verməliyik, ermənilərin planlı şəkildə davam etdirdikləri vaxtuzatma siyasətinin detallı problemlərini aradan qaldırmağa zaman sərf edilməsi maraqlarımıza uyğun deyil".

**Politoloq Elxan Şahinoğlunun fikrincə, Araik müqavimət güclərinin azaldığını anlayır:** "Onun yeni hiyləsi Rusiyanın vasitəçiliyi ilə Azərbaycanın hökumət təmsilçiləri ilə növbəti dəfə Xocalıda görüşün təşkilidir. Arutyunyan bu məqsədlə "dövlət naziri" Qurgen Nersisyanı qabağa verib. Görüş istəsələr də azərbaycanlılarla üzbəüz qalmaqdan qorxurlar, tələb edirlər ki, masada ya Rusiya, ya da hansısa qeyri-müəyyən üçüncü tərəf otursun. Bu, Azərbaycanın maraqlarına cavab vermir. Üçüncü tərəfin iştirakı ilə görüşə razılaşmaq məsələni beynəlmiləlləşdirmək deməkdir. Havalar soyumağa başladıqca vəziyyətləri daha da ağırlaşacaq və onda vasitəçisiz görüşməkdən başqa alternativləri qalmayacaq, ya da sürətlə Qarabağı boşaltmağa başlayacaqlar".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Fransanın Laçın yoluna "səlib yürüşü". Paris reallıq hissini itirib, yoxsa...

## **Politoloq:** "Unudurlar ki, bir müddət öncə də Ermənistanda "Xaçlar" adlanan terrorçu birlik Azərbaycana qarşı "yürüş" həyata keçirmək istəyirdi, amma o plan elə yerindəcə məhv edildi"

**Fransa BMT Təhlükəsizlik Şurasına təqdim etmək üçün "Azərbaycanın blokadası səbəbindən "aclıqdan ölmək" ərəfəsində olan Dağlıq Qarabağın 120 min sakininə yardım haqqında" adlı qətnamə layihəsi hazırlayır.**

Bu, Fransanın riyakar, saxtakar siyasətinin davamı olmaqla yanaşı, anti-Azərbaycan güclərin Qarabağda davamlı sülh, reinteqrasiyanın baş tutmaması üçün maksimum səylə çalışdığının göstəricisidir.

Nəzərə çatdıraq ki, Ermənistan avqustun 16-da Təhlükəsizlik Şurasında bu yöndə müzakirələrə nail olsa da, yekunda heç bir sənəd qəbul edilməmişdi. İrəvanın biabırçı məğlubiyyəti, görünür, onun böyük bacısı Fransanın da maraqlarına uyğun gəlmədiyi üçün bu dəfə Paris özü qətnamə layihəsi hazırlamağa qərar verib.

Bu arada ABŞ-dakı erməni lobbisi də hərəkətlənib və faktiki olaraq Ağ Evi şantaj etməyə başlayıblar: "907-ci düzəlişin" tətbiqinə, Azərbaycan məmurlarına sanksiya tətbiq etməyə çağırırlar.

Buna paralel olaraq Fransa Laçın yolu ilə bağlı növbəti bir təxribat da planlaşdırıb. Belə ki, Paris, Marsel və Strasburq merləri Fransanın Qarabağa yeni humanitar yükünü müşayiət edəcək.

"Fransadan 10 ağır yük maşınından ibarət humanitar karvan avqustun 30-da Kornidzora - Ermənistan Artsaxının girişində yola düşəcək". Fransanın "Le Figaro" jurnalının direktor müavini Jan-Kristof Buisson bu barədə öz Twitter hesabında yazıb.

O qeyd edib ki, yük Fransadakı Erməni Təşkilatlarının Koordinasiya Şurasının (CCAF) köməyi ilə yığılıb. Yükü Fransanın bir sıra regionlarının nümayəndələri müşayiət edəcək. Parisin meri Anna Hidalqonun rəhbərlik edəcəyi nümayəndə heyətinə Marsel və Strasburq merləri, həmçinin Fransanın bir sıra regionlarının rəhbərləri də daxildir.

Faktiki olaraq Fransa Laçın yolu ilə bağlı "səlib yürüşü"nə çıxıb. Təbii, bütün prizmalardan yanaşdıqda Parisin bu davranışı beynəlxalq normalara, siyasi əxlaqa ziddir. Ancaq fakt budur ki, Fransa bu siyasətini, davranışını dəyişmir.




Fransa reallıq hissini itirib? Regiondakı tendensiyanı nəzərə almamaqla Paris nəyə nail olmaq istəyir? Separatçı rejimi faktiki olaraq növbəti dəfə revanşa sövq etmək yekunda hansı nəticələrə gətirib çıxara bilər?

**Politoloq Anar Əliyev "Yeni Müsavat"a bildirdi ki, Fransa neoimperialist maraqlarını həyata keçirmək üçün Cənubi Qafqazda formalaşmış reallıqların şərtlərinə təsir etmək, onu dəyişdirmək istiqamətində cəhdlərini davam etdirməkdədir: "**Xüsusilə BMT Təhlükəsizlik Şurasında məlum müzakirələrdə Fransa və Ermənistanın istəkləri həyata keçmədikdən sonra çox təəssüf ki, Fransa baş verənlərdən düzgün nəticə çıxarmaq əvəzinə Azərbaycana qarşı təxribat istiqamətli, eyni zamanda beynəlxalq müstəvidə heç bir fakta, reaqllıqlara əsaslanmayan yanlış məlumatlar əsasında informasiya müharibəsini davam etdirməyə çalışır. Mən xüsusilə Fransanın BMT Təhlükəsizlik Şurasına təqdim etməyə çalışdığı şikayəti qeyd etmək istəyirəm. Fransa beynəlxalq hüququn prinsiplərinə kobud şəkildə müdaxilə edərək Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndirilən addımlarını açıq-aşkar, dünya ictimaiyyətinin gözü qarşısında reallaşdırmağa çalışır. Çox təəssüf ki, beynəlxalq güclər, Avropa institutları, ABŞ-dan buna əks-reaksiya görmürük. Əvvəla, Fransa belə bir qətnamə layihəsi ilə çıxış etmək istəyi ilə müstəqil Azərbaycan dövlətinin daxili işlərinə müdaxilə etmiş olur, ikincisi, heç bir halda Azərbaycan ərazisində mövcud olmayan inzibati ərazi vahidi haqqında "Dağlıq Qarabağ" termini işlətməklə beynəlxalq hüququn dövlətlərin daxili işlərinə müdaxilə etməmə prinsipinə kobud şəkildə etmiş olur. Eyni zamanda "120 min erməni sakin" qeyd edərək absurd rəqəmlər səsləndirir. Hansı ki, Azərbaycanın əlində Qarabağda təxminən 20 minə yaxın erməni sakinin məskunlaşdığı barədə dəqiq məlumatlar var. Eyni zamanda guya onların acından ölmək ərəfəsində olmaqla bağlı absurd iddialar səsləndirməkə Fransa dünya ictimaiyyətini aldadır. Bununla Fransa Azərbaycanın irqi ayrıseçkilikdə ittiham edilməsinə, Azərbaycana qarşı beynəlxalq təzyiq mexanizmi formalaşdırmağa çalışır. Amma unudurlar ki, Azərbaycan "humanitar böhran" şousu ilə bağlı ilk addımlar atılmağa başlayandan Ağdam-Xankəndi yolunu təklif edib. Lakin ermənilər Azərbaycanın bu humanist təklifini qəbul etmək əvəzinə yola beton bloklar düzüblər. Sual yaranır ki, əgər ermənilər humanitar böhran içərisindədirlərsə niyə onlara təklif olunan yolu qəbul etmirlər. Deməli, heç bir halda humanitar böhrandan, ərzaq problemindən söhbət gedə bilməz. Bütün bunlar hamısı Azərbaycana qarşı beynəlxalq təzyiq kampaniyasının formalaşdırılmasına xidmət eləyən təxribat xarakterli absurd iddialardır. Fransa isə belə təxribat xarakterli addımlarını davam elətdirir. Parisin, Marselin və Strasburqun merlərinin Fransanın Qarabağdakı ermənilərə humanitar yardım adı altında göndərdikləri nəqliyyat vasitələrini müşayiət edəcəkləri haqqında məlumatlar yayılıb. Eyni zamanda Fransanın bir sıra rəsmi şəxsləri, KİV-ləri Azərbaycana qarşı səlib yürüşünə çıxıblar. Amma unudurlar ki, bir neçə müddət öncə də Ermənistanda "Xaçlar" adlanan bir terrorçu birlik Azərbaycana qarşı "səlib yürüşü" həyata keçirmək istəyirdi, amma o plan elə yerindəcə məhv edildi. Onlar unudurlar ki, Azərbaycanı ucuz şoularla, əsassız ittihamlarla geri çəkilməyə məcbur etmək mümkün deyil. Azərbaycan özünün haqq bildiyi, beynəlxalq hüququn prinsiplərinə əsaslanan yolla gedir".**

**Politoloq qeyd etdi ki, eyni zamanda Fransanın bu davranışları bölgə xalqlarının, hətta Ermənistanın özünün belə maraqlarına uyğun deyil:** "Fransanın bu davranışları Ermənistanda revanşist əhval-ruhiyyənin qızışdırılması və yenidən yanlış xülyaların yaranmasına gətirib çıxara bilər. Bu isə Ermənistan dövləti və cəmiyyəti üçün böyük itkilərlə yekunlaşacaq. Ermənistanın Fransa kimi dövlətlərə arxalanaraq törədə biləcəyi istənilən təxribata Azərbaycan ən sərt şəkildə cavab vermək qüdrətindədir və bu addım atılacaq. Ona görə də hesab edirəm Fransanın addımları heç də Qarabağdakı ermənilərin və Ermənistanın maraqlarının təmin olunmasına xidmət eləmir. Fransa yenə də erməniləri alət etməklə özünün Cənubi Qafqazda neoimperialist maraqlarını həyata keçirmək istəyir. Fransanın Azərbaycana qarşı BMT Təhlükəsizlik Şurasında qətnamə qəbul etdirmək istəyinin reallaşması gözlənilən deyil. Təhlükəsizlik Şurasının daimi üzvlərindən və qeyri-daimi üzvlərindən Azərbaycanın haqlı mövqeyini müdafiə edənlər var. Rusiya Fransanın qəbul etdirmək istədiyi qətnaməyə veto qoymaqla özünün Cənubi Qafqaz maraqlarını qoruyub saxlamağa çalışacaq. Bunu Fransa da, Ermənistan da bilir. Amma belə uğursuz addımlar atmaqla Cənubi Qafqazda baş verən prosesləri beynəlxalq gündəliyə daşımaq və bununla da Azərbaycana qarşı təzyiq kampaniyasını genişləndirməyə çalışırlar. Lakin ciddi real nəticələr əldə edə biləcəkləri gözlənilmir".**

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

## Qarabağdakı Rusiya sülhməramlılarının komandanı yenə dəyişir

**General-mayor Kirill Kulakov Qarabağdakı Rusiya sülhməramlı kontingentinin yeni komandanı təyin olunacaq. APA-nın Rusiya bürosu xəbər verir ki, bu barədə Ermənistanın "Hraparak" qəzeti teleqram kanallarına istinadən məlumat yayıb.**

Qeyd edək ki, bir müddət əvvəl Ermənistan mətbuatı hərbi kontingentin rəhbərliyində dəyişiklik edilməsi ilə bağlı xəbər yayıb və qeyd edib ki, indiki komandan general-polkovnik Aleksandr Lentsov artıq Qarabağı tərk edib.

Xatırladaq ki, Lentsov bu il aprelin 25-də Qarabağdakı Rusiya sülhməramlı kontingentinin komandanı təyin olunmuşdu.

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

# Gəncləri qul əməyinə dəvət edən şirkətlər: qanun nə deyir - açıqlama

## Sahib Məmmədov: "Bu qanunsuzluq əmək bazarında tələb-təklif tarazlığının pozulmasından qaynaqlanır"

**Azərbaycanda əhalinin məşğulluğu sahəsində problemlər kifayət qədərdir: əmək müqaviləsi olmadan, istirahət hüququ tanınmadan, aşağı maaşla işlədilmək və sair. Bir çox şirkətlər insanların, xüsusilə də gənclərin işsizliyindən istifadə edərək, onları az maaşla işə dəvət edir, 8 saatdan artıq işlədir, çox iş gördürür, minimum əmək haqqı civarında maaş verirlər.**

Təcrübə göstərir ki, onların elan etdiyi 1 iş yeri üçün 10-15 gənc müraciət edir və şirkət menecerlərinin seçim imkanı geniş olur. Üstəlik, onları asanlıqla işdən kənarlaşdırırlar. Məsələn, yanacaqdoldurma məntəqələrində az qala hər həftə yeni operatorlar görürsən. Yaxud supermarket şəbəkələrində hər 4-5 aydan bir işçilərin dəyişdiyini müşahidə etmək olur. Turizm və ictimai iaşə obyektlərində də eyni mənzərə hökm sürür. Belə obyektlərin çoxunda əsasən gənclər əmək müqaviləsi, hər hansı digər təminat olmadan işlədilirlər.

Qeyd edək ki, işsizlik Azərbaycanda bütün əhali qrupları arasında ən böyük problemlərdən biridir. Rəsmi rəqəmlərdən aydın olur ki, bu problem gənclər arasında daha kəskin xarakter alıb. Dövlət Statistika Komitəsinin hesablamalarına görə, 2021-ci ildə Azərbaycanda 1 milyon 261 min nəfər 15-29 yaşlı gənc olub. Onlar arasında işsizlik 10.1 faiz təşkil edib - 141,7 min nəfər. Bu, 2021-ci ildə ölkədə rəsmi şəkildə qeydə alınan 315,7 min nəfər işsizin 45 faizi deməkdir. Həmin il rəsmi əmək müqaviləsi ilə işləyən 1 milyon 709 min nəfər arasında gənclərin sayı 384,1 min nəfər təşkil edib. Bu o deməkdir ki, rəsmi statistikanın məşğul kimi qeydə aldığı 1 milyon 265,1 min gəncin cəmi 30 faizi rəsmi əmək müqaviləsi əsasında çalışıb. Rəsmi statistikaya əsasən, 20-24 yaşlı gənclər arasında işsizlik səviyyəsi daha yüksək - 14.2 faizdir. 2021-ci ildə ölkə üzrə əmək qabiliyyətli əhalinin 6 faizinin işsiz olduğu elan edilib. Bu o deməkdir ki, Azərbaycanda gənclər arasında işsizlik səviyyəsi ölkə üzrə orta rəqəmdən 1.7 dəfə yüksək olub.

Beynəlxalq təcrübədə gənclər siyasəti ilə bağlı durumu dəyərləndirərkən, ən vacib göstəricilərdən sayılan "NEET" indikatorundan yararlanırlar. Bu indikator 15-24 yaşlı gənclər arasında təhsil və əmək bazarında olmayanların payını göstərir.

"2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" adlı sənəddə hökumət bu indikatorun Azərbaycandakı səviyyəsini açıqlayıb. Həmin sənəddən məlum olur ki, 2017-ci ildə Azərbaycanda "NEET" indikatoru 23 faizdir. Deməli, ölkədə 15-24 yaş arasında olan hər dörd gəncdən biri nə təhsil alır, nə də işləyir. Hökumət 2030-cu ilədək bu göstəricini 15 faizə endirməyi hədəfləyir.

Məlumdur ki, işsizlik səviyyəsi və əmək haqqının məbləği işçilərin təhsil səviyyəsindən birbaşa asılıdır: yüksək təhsilli insanlar daha rahat və daha yüksək maaşlı iş tapa bilirlər. Azərbaycanda bir çox hallarda işəgötürənlər ixtisaslı işçi tapa bilmədiklərindən gileylənirlər. Mütəxəssislərə görə, bunun səbəbi Azərbaycanda gənclərin ali təhsilə çıxış imkanlarının xeyli məhdud olmasıdır. Rəsmi rəqəmlərə görə, məşğul sayılan gənclərin cəmi 20.7 faizi (hər beşindən biri) ali təhsillidir. Gənclərin yalnız 65 faizinin adi məktəb təhsili var. Yalnız hər üç gəncdən ikisinin orta təhsilinin olması onların iştapma imkanlarını azaldan amillərdən biridir.

Ali təhsil almaqda olan tələbə sayına görə də Azərbaycan bölgə ölkələrindən geri qalır və MDB ölkələri arasında əhalinin hər 10 min nəfərinə düşən tələbə sayına görə sonuncudur.

Daha bir problem Azərbaycanda təhsilin keyfiyyəti ilə bağlıdır. Həm orta, həm də ali təhsil sahəsində keyfiyyətlə bağlı ciddi problemlər mövcuddur. Elm və Təhsil Nazirliyinin hesabatına görə, 2021-2022-ci təhsil ili üçün keçirilən imtahanlarda universitetə qəbul edilən tələbələrin orta balı 275 olub. Bu, maksimum nəticənin cəmi 39 faizi deməkdir.

Bu gün ali təhsil pilləsini başa vurub əmək bazarına daxil olan hər 10 gəncdən 3-4 nəfərinin bilik və bacarıqları yiyələndikləri ixtisas üzrə tələblərə cavab verə bilir. Digər bir problem ali təhsilin əmək bazarının tələblərinə uyğunsuzluğudur. Ali təhsil müəssisələrinin verdiyi ixtisaslar bir çox hallarda iqtisadiyyatda tələb tapmır, yaxud az tələb olunan olur.

**Əmək haqqına gəlincə, ölkədə bu göstərici ilə bağlı rəsmi məlumatlar son illərdə onun artdığını göstərir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Yeni Müsavat"a verilən məlumata görə, 2018-2023-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmaqla, nəticədə sosial ödənişlərdə, o cümlədən əməkhaqlarında da ardıcıl artımlara nail olunub:** "Aparılan islahatlar nəticəsində həmin dövrdə minimum əmək haqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata çatdırılıb. Orta aylıq əmək haqqı 70 faiz artaraq 917 manata çatıb. Əmək haqqı fondunda 2,6 dəfə artım baş verib".

Rəsmi statistikadan aydın olur ki, 2022-ci ildə Azərbaycanda minimum əmək haqqından aşağı maaş alan işçilərin sayında artım baş verib. Belə ki, ötən il Azərbaycanda minimum əmək haqqı 300 manat idi. Həmin dövrdə ölkədə muzdla - rəsmi əmək müqaviləsi əsasında çalışan işçilərin 10.7 faizinin əmək haqqı minimum məbləğdən aşağı olub. Bu, təxminən 170 min nəfər deməkdir. Nəzərə alsaq ki, minimum maaşdan aşağı əmək haqqı alanların sayı 2021-ci ildə muzdlu işçilərin sayının 2,5 faizinə bərabər olub, onda 2022-ci ildə bu sahədə mənfi tendensiyanın qeydə alındığını söyləyə bilərik. Mütəxəssislərə görə, bu azalma işəgötürənlərin sosial ödənişlərdən yayınmaq istəyindən irəli gəlir: onlar işçilərlə əmək müqaviləsini natamam iş günü üzrə bağlayırlar.

Dünyada ölkələr üzrə işləyənlərin aldığı məvacibin real səviyyəsini qiymətləndirmək üçün median əmək haqqı anlayışından istifadə olunur. Median əmək haqqı ölkə üzrə əməkhaqqı səviyyəsini göstərən cədvəlin ortasında qərarlaşan işçinin məvacibidir. Median əmək haqqı ölkədəki işçi qüvvəsinin yarısının hansı göstəricidən az qazandığını ortaya qoyur.

Azərbaycanda 2021-ci ilin əvvəlindən median əməkhaqqı hesablanır. ƏƏSMN-dən verilən məlumata əsasən, 2018-2023-cü illərdə gəlirlərin ədalətli bölgüsünün göstəricisi olan median əməkhaqqında 2,1 dəfə artım özünü göstərib: o cümlədən, ötən il median əmək haqqında 18 faiz artım olub. Bu ilin yanvar-iyul aylarında isə median əmək haqqı cari ilin əvvəlinə nisbətən 12,7 faiz artaraq 478 manata çatıb.

Rəsmi statistikaya əsasən, 2023-cü il iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5,5 min nəfər və ya 0,3 faiz artaraq 1 milyon 725,5 min nəfər olub. Onlardan 894,2 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 831,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. 2023-cü ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,5 faiz artaraq 921,9 manat olub. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əmək haqqı daha yüksək olub.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) statistikasına görə, median və orta aylıq maaş arasında fərq inkişaf etmiş və bir sıra Şərqi Avropa ölkələrində 10-25 faiz arasında dəyişir. Azərbaycanda isə iyulda əmək müqaviləsi ilə çalışan işçilərin 862 min nəfəri 478 manatdan aşağı maaş alıb. 478 manat iyulda qeydə alınan orta aylıq əmək haqqının 52 faizinə bərabərdir. Bu isə ölkədə median əmək haqqı ilə orta aylıq əmək haqqı arasında 48 faiz fərqin olması deməkdir. Lakin bir müsbət məqam budur ki, 2021-ci ildə bu fərq 70 faizə bərabər olub, 2023-cü ilin 7 ayı üzrə 48 faizə qədər azalıb.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədovun "Yeni Müsavat"a dediyinə görə, işəgötürənlərin aşağı maaşlı, çox saatlı iş təklifləri ölkənin əmək bazarındakı tələb/təklif nisbətindən irəli gəlir:** "Əmək bazarında təklif çox, tələb azdır. Ölkədə işsizlik yüksək olaraq qalır. Əhalinin 70 faizə yaxını əmək qabiliyyətlidir. Hər il əmək bazarına daxil olanların sayı onu tərk edənlərdən çox olur. Bu da xüsusilə gənclər arasında işsizliyin yüksək olmasına gətirib çıxarır".

**Liqa rəhbəri bildirir ki, Azərbaycanda işçi qüvvəsi qeyri-bərabər paylanıb:** "Xüsusilə ixtisaslı işçilərin böyük əksəriyyəti Bakı-Abşeronda toplaşıb. Regionlarda bir çox hallarda ixtisas tələb edən iş yerlərində kadr çatışmazlığı yaranır. İşçi bolluğu imkan verir ki, şirkətlər qanunsuz yollara əl atsınlar: aşağı maaşla işçini daha çox işlədirlər. Gənclər də ən həssas təbəqə olmaqla məcburən bu şərtlərlə işləməyə razılaşırlar. Dövlət müəyyən tədbirlər həyata keçirir belə halların qarşısını almaq üçün. Məsələn, Dövlət Məşğulluq Xidməti işsizlikdən sığorta fondu hesabına işəgötürənlərlə əmək haqqının birgə maliyyələşdirilməsini həyata keçirir. Lakin bu, çox az sayda adamı əhatə edir. Regionların inkişaf səviyyəsi artdıqca, işçi qüvvəsinin paylanmasındakı qeyri-bərabərlik də tədricən aradan qalxacaq. Məsələn, işğaldan azad olunan bölgələrdə çoxsaylı layihələrə işçi cəlb olunur, xeyli insan orada gedib işləyir. Lakin təəssüflər olsun ki, bizə çatan məlumata görə, orada da maaş aşağı, iş rejimi sərtdir. Gündəlik 11-12 saat işləyən şəxslərə 500-600 manat maaş verilir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

# Türkiyə-Yunanıstan münasibətləri yeni mərhələdə - yunan nazirin səfərində nələr razılaşdırılacaq?

## Politoloq: "Bir səfərlə köklü problemlərin həlli mümkün deyil, amma"...

**● ki yaxın qonşu və tarixi düşmən hesab olunan ölkə - Türkiyə və Yunanıstan arasında münasibətlər yenidən istiləşməyə başlayıb. Bu ilin fevralında Türkiyədə baş verən güclü zəlzələdən sonra Yunanıstan qardaş ölkəyə ilk yardım göndərənlər arasında oldu. Yunanıstan tərəfinin bu jesti Türkiyə tərəfindən müsbət qarşılandı və iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində müsbət irəliləyişlər müşahidə edildi.**

Xatırladaq ki, Yunanıstanla Türkiyə arasında gərgin olan münasibətlər 1999-cu ildə hər iki ölkədə baş verən ağır zəlzələdən sonra da mülayimləşmişdi. Məhz həmin dövrdə Yunanıstan Türkiyənin Avropa Birliyinə üzvlüyü məsələsində ciddi yumşalmaya gedib. Həmin vaxt başlanan mülayimləşmə 10 il davam etdi.

İndi yenidən ölkələr arasında siyasi-diplomatik təmaslar intensivləşir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Yunanıstanın Baş naziri Kiriakos Miçotakis iyulda NATO-nun Vilnüsdə keçirilən sammiti ərəfəsində bir araya gəldilər. Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin yaydığı məlumata görə, görüşdə dövlət başçıları iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində addımların atılmasına dair razılığa gəliblər. R.T.Ərdoğan və K.Miçotakis formalaşmış müsbət atmosferin hər iki ölkənin xeyrinə olduğunu vurğulayıblar.

Dövlət başçıları iki ölkə arasında rabitə kanallarının fəallaşdırılması barədə razılığa gəliblər. Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının növbəti iclasının payızda Salonikidə keçirilməsi razılaşdırılıb. Proseslərə rəhbərlik etməklə bağlı xarici işlər nazirlərinə müvafiq tapşırıq verilib. Həmçinin liderlər qarşılıqlı təmasların intensivləşməsi haqqında ortaq məxrəcə gəliblər.

İyulda həmçinin Yunanıstanın xarici işlər naziri Yorgo Gerapetritis bəyan edib ki, ölkəsi dəniz sərhədləri ilə bağlı mübahisələrin həlli üçün Türkiyə ilə danışıqlara açıqdır.

Yunanıstanın xarici işlər nazirinin sentyabrın 5-də Türkiyəyə səfəri planlaşdırılıb. Bu haqda Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb. Məlumatda qeyd olunub ki, Y.Gerapetritis sentyabrın 5-də Türkiyə xarici işlər naziri Hakan Fidanla görüşmək üçün bu ölkəyə işgüzar səfər edəcək. XİN başçıları ikitərəfli və regional məsələləri müzakirə edəcəklər.

Qeyd edək ki, Türkiyə ilə Yunanıstan arasında əsas problem Egey dənizində yerləşən 20-dək ada, Kipr adasındakı türk əhalinin hüquqları və Aralıq dənizindəki neft-qaz yataqları ilə bağlıdır. Uzun müddət Osmanlı Türkiyəsinin tabeliyində olan adalar hazırda Yunanıstan ərazisi hesab olunur. Türkiyə Yunanıstanın adalarda hərbi bazalar, uzaq mənzilli silahlar yerləşdirməsinə qarşı çıxır. Ötən əsrin 70-ci illərindən Kipr adasında yaranan vəziyyət də tərəflərin nifaq almalarından biridir. Nəhayət, son onillikdə iki ölkənin münasibətləri Aralıq dənizindəki neft-qaz ehtiyatları üzündən də gərginləşir.

Qeyd edək ki, Aralıq dənizinin şərq sahillərində böyük enerji ehtiyatları mövcuddur. ABŞ Geoloji Araşdırmalar Mərkəzinin ehtimallarına görə, Kipr, Livan, Suriya və İsrail arasında qalan dəniz bölgəsində 3,45 trilyon kubmetr qaz və 1,7 milyard barel neft var. Nil Deltası hövzəsində isə 1,8 milyard barel neft, 6,3 trilyon kubmetr təbii qaz və eləcə də 6 milyard barel maye qaz yatağı olduğu ehtimal olunur. Bundan başqa, Kipr adası ətrafında olduğu ehtimal olunan 8 milyard barel neft yatağından başqa Krit adasının cənub və cənub-şərqində "Heredo" adlı yataqda 3,5 trilyon kubmetr qaz olduğu ehtimal edilir.

Bu bölgənin neft-qazla zəngin olmasına dair iddialar 2007-2008-ci illərdən səsləndirilsə də ilk nəticələr 2009-cu ildə əldə edilib - İsrail öz sahillərində ehtiyatlarının həcmi 280 milyard kubmetr hesablanan "Tamar" qaz yatağını kəşf edib. Daha sonra yenə İsrail tərəfindən 620 milyadr kubmetrlik ethiyatı olan "Leviafan" yatağı açılıb. 2011-ci ildə isə Kipr yaxınlığında "Afrodita" yatağı(200 milyard kubmetr ehtiyatla) aşkarlanıb.

2015-ci ildə İtaliyanın "Eni" şirkəti dənizin Misirə aid hissəsində "Zöhr" yatağını kəşf edib - 850 milyard kubmetrə qədər ehtiyatla.

İsrail, Misir, Kiprdən əlavə, Aralıq dənizinin Suriya, Livan, Fələstin və Yunanıstan hissələrində də böyük ehtiyatların olduğu güman edilir. Buna görə də böyük qüvvələrin bölgəyə marağı getdikcə artır. ABŞ, Fransa, İtaliya şirkətləri kəşfiyyat işləri üçün müxtəlif ölkələrdən lisenziya almağa çalışırlar.

Türkiyə də bölgədə maraqlarını qorumağa, həmçinin dənizin özünə aid hissəsində neft-qaz axtarışlarını genişləndirməyə çalışır. Türkiyənin Aralıq dənizində kəşfiyyat-qazma işləri aparması Yunanıstan tərəfinin etirazlarına səbəb olmaqdadır. Yunanlar Türkiyə ilə Yunanıstan arasında dəniz sularında iqtisadi sərhədlərin müəyyənləşmədiyini əsas gətirməklə Ankaranı dayandırmağa çalışırlar. Türkiyə isə Kipr adası sahillərində hər hansı qazma və ya hasilat işlərinə imkan verməyəcəyini bildirir. Bu məqsədlə türk hərbi gəmiləri dəfələrlə Aralıq dənizinin perspektiv strukturlar olan bölgələrinə yeridilib.

2020-ci ildə İsrail, Yunanıstan və Cənubi Kipr arasında İsrailin "Leviafan", Yunan Kiprinin "Afrodita" yataqlarının qazını Avropaya çatdıracaq Şərqi Aralıq dənizi qaz boru xəttinin (EastMed pipeline) tikintisi haqqında sazişi imzalanıb. Ötən müddət ərzində hər 3 tərəf sazişi ratifikasiya edib, layihənin icrasına başlanıb.

Avropa İttifaqı layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanması üçün 34,5 milyon avro ayırıb, onu özü üçün maraq dairəsində olan layihə elan edib. Bu isə o deməkdir ki, çəkiləcək kəmər Avropa Komissiyasının 3-cü enerji pasketinin təsir dairəsinə düşməyəcək. Bundan əlavə, ABŞ da layihəni dəstəkləyib. Hətta Afinadakı imzalanma mərasiminə ABŞ-ın o vaxtkı dövlət katibi Mayk Pompeo da qatılmışdı. Beləliklə, həm Avropa İttifaqının, həm də ABŞ-ın dəstəyini alan "EastMed pipeline" İsarilin "Leviafan" və Kiprin "Afrodita" yataqlarından qazın Kipr adası və Kritdən Yunanıstanın materik hissəsinə, oradan isə İtaliyaya qədər çatdırılmasını nəzərdə tutur. Uzunluğu 1900 kilometr olan qaz kəmərinin 1300 kilometri dənizin altından, 600 km-i isə qurudan keçəcək. Layihənin ümumi dəyəri 7 milyard dollar hesablanır. Lakin əksər analitik mərkəzlər bu məbləğin 9 milyard dollara qədər artacağını gözləyirlər. 2025-2026-cı illərdə istifadəyə verilməsi nəzərdə tutulan kəmərin illik layihə ötürücülük gücü 10 milyard kubmetr olacaq. Türkiyə Kiprə məxsus sərvətlərdən Şimali Kiprin də bəhrələnmək hüququnun olduğunu bəyan edərək, sazişdə bu hüququn təsbit olunmadığına görə ona qarşı çıxıb. Rəsmi Ankara dəfələrlə bəyan edib ki, Şimali Kiprin maraqlarının təmin olunmadığı müddətdə kəmərin çəkilməsinə imkan verməyəcək.

Ötən il Liviya ilə Türkiyə arasında əldə edilən razılaşmaya əsasən kəmərin keçəcəyi ərazinin bir hissəsi - Kipr adasının Şərq akvatoriyası Türkiyənin müstəsna iqtisadi ərazisi hesab olunur. Bu isə o deməkdir ki, həm layihənin iştirakçıları, həm də əsas dəstəkçisi olan Avropa Birliyi Ankara ilə hesablaşmalı olacaqlar.

Türkiyə həmçinin İsraillə münasibətlərini normallaşdırır ki, bu da İsrail qazının Türkiyə üzərindən Avropaya nəqlini nəzərdə tutan kəmərin reallaşması imkanlarını artırır. 2016-cı ildə layihənin texniki-iqtisadi əsaslandırılmasını hazırlamaq üçün ikitərəfli işçi qrup formalaşdırılıb. Lakin münasibətlərin gərginləşməsi onun arxa plana keçməsinə səbəb olub. Hazırda İsraillə Türkiyə arasında münasibətlərdə ciddi dönüş müşahidə olunur. Prezident R.T.Ərdoğan tərəflərin qaz kəməri ilə bağlı konkret razılıq əldə etməsini istisna etmir.

Beləliklə, Türkiyə Yunanıstanla münasibətlərin yeni mərhələsinə qədəm qoyur. Ölkələr arasında buna görə münasibətlər bir neçə il əvvəl son dərəcə kəskinləşdi, hətta hərbi müdaxilə məsələsi də gündəmə gətirildi. Sonra Yunanıstan bundan nəticə çıxararaq müəyyən geri addımlar atdı və gərginlik aradan qalxdı, münasibətlərin normallaşması üçün zəmin formalaşdı. Türkiyədə də mühüm seçkilər arxada qalıb, Prezident Rəcəb Tayyib Ərdoğan yaxın qonşularla münasibətləri normal axara qaytarmağa çalışır. Burada yalnız Yunanıstan deyil, İsrail, Suriya kimi məsələlər də var. İsraillə münasibətlər normallaşıb demək olar ki. Suriyadakı rejimlə münasibətlərin normallaşması yəqin ki, mümkün deyil. Amma ən azından diplomatik təmasların yaradılması mümkündür".

**Politoloqa görə, yunan nazirin Ankaraya rəsmi səfərindən böyük gözləntiləri yoxdur:** "Düşünmürəm ki, tərəflər arasındakı fundamental problemləri bir dəfəyə aradan qaldıracaq hansısa böyük razılaşmalara nail olunacaq. Amma hər bir halda, eyni alyansın üzvü olan iki dövlətin münasibətlərində növbəti gərginləşmənin qarşısını alacaq razılaşmalar mümkündür. Ən əsası isə Yunanıstan Türkiyə yaxınlığındakı adaları hərbiləşdirməkdən geri durmalıdır. Nəhayət, tarixən ticari-iqtisadi bağlılığı olan ölkələr arasında bu sahədə də münasibətlər tənzimlənə bilər".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

Yunanıstan xarici işlər nazirinin Ankaraya səfəri prosesə nə qədər ciddi töhfə verə bilər? Ölkələrin aralarındakı problemləri həll etmək imkanları nə qədər böyükdür? **Politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun "Yeni Müsavat"a dediyinə görə, Türkiyə ilə Yunanıstan arasında münasibətlər qeyri-sabitliyi ilə diqqəti cəlb edir:** "Münasibətlər gah gərginləşir, gah mülayimləşir, sonra yenidən gərginlik yaranır. Uzun illərdir biz bunun şahidi oluruq. Yunanıstanın Türkiyə yaxınlığındakı adaları hərbiləşdirməsi Türkiyənin maraqlarına, beynəlxalq konvensiyalara ziddir.

YENİ MÜSAVAT
N 151 (8287) 29 avqust 2023

# Yediyimiz zəhər olmasın: qida təhlükəsizliyimiz necə qorunur - boşluqlar və ...

## Eyyub Hüseynov: ""Qida Təhlükəsizliyi Agentliyi haqqında" Əsasnaməyə mütləq dəyişiklik edilməlidir, çünki..."

**Hazırda bütün dünyada ən çox diqqət yetirilən və problemlər olan sahələrdən biri də qida təhlükəsizliyidir. Ərzaq, qida getdikcə bahalaşmaqda ikən ortaya saxta məhsullar, köhnə mallar daha çox çıxır, təhlükəsizlik zəncirinin qırılması da növbəti problemlərdən biridir.**

Qida məhsullarının daşınması və çatdırılması sahəsində bir sıra ciddi nöqsanlar mövcuddur. Əsasən qida məhsullarının daşınması və müştərilərə çatdırılması zamanı sanitariya norma və qaydaları ilə temperatur rejimi pozulur. Məhsulların saxlanılması və daşınması zamanı mal qonşuluğu qaydalarına əməl olunmur. Həmçinin emal edilmiş yarımfabrikat və hazır yeməklərin üzərində hazırlanma vaxtı yazılmır. İstifadə olunan alət və avadanlıqlar dezinfeksiya edilmir, xammal kimi istifadə müddəti bitmiş və mənşəyi məlum olmayan məhsullardan istifadə edilir, işçi heyət ilkin və dövri tibbi müayinədən keçirilmir və digər nöqsanlara yol verilir. Bu hallar isə istehlakçıların ciddi narazılığına və onların səhhətində problemlərin yaranmasına səbəb olur.

Bu cür nöqsanlarla bağlı istehlakçılar tərəfindən Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin "1003 Çağrı mərkəzi"nə müxtəlif müraciətlər daxil olmaqdadır.

Daxil olmuş vətəndaş şikayətləri əsasında agentliyin əməkdaşları tərəfindən plandankənar yoxlamalar həyata keçirilir. Yoxlamalar zamanı qida məhsullarının çatdırılması xidmətini göstərən bir sıra müəssisələrin qida məhsullarını daşıdığı termoblokların sanitar vəziyyətinin qənaətbəxş olmadığı və daşınma zamanı mal qonşuluğuna əməl edilmədiyi, temperatur rejiminin gözlənilmədiyi və çarpaz çirklənmələrin qarşısının alınması üçün zəruri tədbirlərin görülmədiyi və s. kimi pozuntular müəyyən olunub. Agentlikdən verilən məlumata görə, qurum tərəfindən 2023-cü il ərzində 10 keytrinq şirkətində planlı yoxlama da keçirilib. Aşkar edilmiş nöqsanlarla bağlı 10 halda agentlik tərəfindən inzibati məsuliyyət tədbirləri görülüb. 1 müəssisədə emalın müvəqqəti məhdudlaşdırılması, 3 müəssisədə malın (mal partiyasının) satışının dayandırılması və qadağan olunması, 2 müəssisədə işçi heyətin nöqsanlar aradan qaldırılanadək kənarlaşdırılması barədə məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar verilib.

Qeyd edək ki, Azərbaycanda qida məhsullarının daşınması və çatdırılması sahəsində əsasən "Bolt Food", "Uber", "Volt", "Ozio", "Ibox" və "Umico" şirkətləri fəaliyyət göstərir. Həmçinin bəzi ictimai iaşə müəssisələri və bir sıra marketlər də öz məhsullarının müştərilərə çatdırılması xidmətini həyata keçirir. Ancaq qida təhlükəsizliyi dedikdə, burada söhbət yalnızca kiçik məsafələrə daşımalardan və anti-sanitar durumdan getmir. Hazırda ölkənin bazar-dükanlarında kifayət qədər saxta kənd təsərrüfatı məhsulları var. Eyni zamanda plastik qablardakı içməli sular düzgün saxlanılmır və hamımız ən azı bir neçə dəfə plastik qabda su alıb içərkən onun acı tam verdiyini hiss etmişik. Eyni zamanda toyuq, balıq məhsulları da mağazalarda, bazarlarda qətiyyən düzgün saxlanılmır. Təəssüf ki, Azərbaycanda qida təhlükəsizliyinə əməl edilməsində böyük nöqsanlar var. Bu sahədə nəzarət gücləndirilməlidir.

**İstehlakçıların hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, ölkənin əmtəə bazarında heç də az olmayan pestisidlərlə, nitritlərlə zəngin kənd təsərrüfatı məhsulları var:** "Eləcə də hibrid adı altında başqa ölkələrdən, misal üçün Türkiyədən Azərbaycana gətirilən genetik modifikasiya olunmuş (GMO) kənd təsərrüfatı məhsulları mövcuddur. Bunlar hamısı insanların həyatına mənfi təsir göstərir. Yaxınlarda Şri-Lankada oldum, o ölkədəki həm səhiyyə, həm də qida əlçatanlığı aşağı səviyyədədir. Amma mən bu ölkədə GMO bitkiçilik görmədim. Bibərlər adamın baş barmağının yarısı boydadır. Ziyalılarla söhbət zamanı da öyrəndim ki, onların, ümumiyyətlə, GMO bitkilər haqqında təsəvvürləri belə yoxdur. Məhz ona görə də Azərbaycan uzunömürlülər siyahısında 198 ölkə arasında 115-ci yerdədir. Lakin Banqladeş kimi yoxsul, Şri- Lanka kimi geridə qalmış ölkələr bu siyahıda daha geridədir. Hippokrat deyir ki, biz nə yeyiriksə, oyuq. Ölkəmizdə pestisidlərlə, nitritlərlə zəngin olan bitkiçilik var, çox təəssüflər olsun ki, bu işə məsuliyyətli olan aidiyyəti qurumlar gizli şəkildə GMO-nun lobbiçiliyini aparır. "Qida təhlükəsizliyi haqqında" Qanunda Azərbaycanda fermer təsərrüfatında heyvanların GMO tərkibli yemlərlə yemləndirilməsinə icazə verildi. Bu bir daha heyvanların ətində, südündə özünü göstərəcək. Belə mallar var, Türkiyədən, İrandan, Çindən gətirilir".

**O ki qaldı plastik qablarla bağlı məsələyə, ekspert bildirdi ki, son 20 gündə ölkənin şimal və cənub zonasında istehlakçı hüquqlarının pozulmasına dair vəziyyətlə bağlı istirahət mərkəzlərində monitorinqini aparıb:** "Şimal zonasında tələbin təklifi üstələdiyini gördüm. Antisanitar vəziyyət həddən artıq yüksəkdir. O cümlədən Hacıkənddə antisanitar vəziyyəti xüsusi demək istəyirəm. Lerikdən axan çayın ətrafı isə plastik tullantılarla dolu, pis vəziyyətdədir. Astarada da eyni vəziyyətlə üzləşdim. Sım kəndinə qədər getdim, çay boyu plastik tara ilə çirklənləndirilib. Heç bir elmi tədqiqat institutu bunu araşdırmır. Biz tədricən miqrasiya etmiş kimyəvi elementlərin qida vasitəsinə qəbul olunmasına məruz qalırıq. Cənub zonasında, əksər yerlər son dərəcə ekzotik meşələri olan Astara və Lənkəran rayonunda çayların kənarları, dərələr plastik taralarla həddən artıq çirkləndirilib. Bilmirəm müvafiq icra qurumları hara baxır".

**E.Hüseynov onu da dedi ki, hər bir ərzaq istehsal edildiyi gündən qısa bir müddətdə təhlükəli hala çevrilə bilər:** "Çünki hər bir ərzağın saxlanma müddəti olduğu kimi, saxlanma şəraiti də mövcuddur. Bu şərait adətən ərzağın üzərindəki etiketdə yazılır. Ona görə ərzaq istehsalında iştirak edən bütün subyektlər - əkinçilər, biçinçilər, anbarçılar, satış edən şəxslər və başqaları ərzağın soyuq zəncir prinsipi üzrə saxlanılması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində (AQTA) qeydiyyata alınmalıdır ki, AQTA hər yerdə lazımi monitorinqlər, maarifləndirmə işləri apara bilsin. Lakin görürük ki, təəssüf ki, belə deyil. Marketlərdə gecələr soyuducuların söndürülməsi ilə bağlı illərdir, Azad İstehlakçılar Birliyinə telefon zəngləri gəlir. Onu da qeyd edim ki, ildən-ilə bu vəziyyət azalır. Çünki AQTA müəyyən nəzarət tədbirləri həyata keçirir. Dükana girdikdə istehlakçı pis qoxunu hiss edirsə, bu o deməkdir ki, gecələr soyuducular söndürülüb. Təbii ki, bu addımı elektrikə qənaət etmək məqsədilə atırlar. Yay aylarında marketlərdə ciddi monitorinq aparmaq lazımdır. Soyuducuların temperaturunun ərzaqların saxlanma temperaturuna uyğun olub-olmadığını yoxlamaq lazımdır. Bu məsələ açıq qalıb. Heç kim bununla məşğul olmur. Güman edirəm ki, çox sayda ərzaq bu cür market sahiblərinin qənaətcilliyi nəticəsində istehlakçıların zəhərlənməsinə gətirib çıxarır. Ümumiyyətlə, "Qida Təhlükəsizliyi Agentliyi haqqında" Əsasnaməyə mütləq dəyişiklik edilməlidir. Onlar cəld hərəkətə keçməlidir. Burada çox uzun, səhv bir prosedura var, bu ləğv olunmalıdır. Tez xarab olan mallar küçələrdə, harada gəldi satılır. Bütün bunlar hamısı sahə müvəkkillərinin, bələdiyyələrin gözü önündə satılır. Düşünürəm ki, bələdiyyələrə müəyyən səlahiyyətlər verilməlidir. Hər kəs öz ərazisində qidanın təhlükəsizliyinin təmin olunması üçün mümkün olan işləri görməlidir. Çox təəssüf ki, bələdiyyələr bu işlərə çox zəif baxırlar. Yalnız icra hakimiyyətləri küçə ticarətinə nəzarət edir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

## Bakının daha bir mərkəzi küçəsində sürət həddi endirildi

**Bakı şəhərində yol hərəkəti təhlükəsizliyi səviyyəsinin artırılması, nəqliyyat axınlarının effektiv idarə olunması məqsədilə daha bir küçədə sürət həddi endirilib.**

"APA-Economics" Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin yaydığı məlumata istinadən xəbər verir ki, bu gündən etibarən paytaxtın Səməd Vurğun küçəsində sürət həddi 60 km/saatdan 50 km/saata endirilib.

Qeyd olunan yol sahəsində müvafiq yol nişanları quraşdırılıb.

**"Vaqner" Özəl Hərbi Təşkilatının (ÖHT) rəhbəri Yevgeni Priqojinin ölümü onun adına bağlı olan, bu günə qədər qatı açılmayan qanlı cinayətləri də gündəmə qaytarıb. Priqojinin "Vaqner"çilərinin qara qitədə - Afrikada qətlə yetirdikləri həmyerlimiz, hərbi jurnalist, əfsanəvi Heydər Camalın oğlu Orxan Camalın ölüm işi də bu sıradadır. Dünya şöhrətli hərbi jurnalist Orxan Camal, məşhur rejissor Aleksandr Rostorquyev, operator Kiril Radçenko 2018-ci ilin avqustunda vəhşicəsinə qətlə yetiriliblər. Mövzu bu gün də aparıcı dünya xəbər agentliklərinin manşetlərindədir.**



# Əfsanəvi hərbi jurnalist Orxan Camalı Afrikada "Vaqner" niyə öldürmüşdü - faktlar

## Özəl hərbi şirkətin muzdluları haqqında film çəkmək istəyən media mənsubunun bağlı qalan qətli açıla bilər

Azərbaycanın tanınmış telejurnalisti, yazıçı Həmid Herisçi Camal ailəsi ilə yaxından dost olub. O, mərhum Heydər Camal və onun oğlu Orxan Camalla yaxın münasibətləri olmuş azsaylı azərbaycanlılardandır.

Orxan Camal qətlə yetirilməndən sonra Həmid Herisçi "Yeni Müsavat"a bu mövzuda maraqlı açıqlamalar vermiş, qətli "Vaqner"çilərin icra etdiyini açıqlamışdı. **Həmid Herisçinin dediklərindən sitat:**

"Orxan Rusiya ictimai həyatında milli maraqlarımızı müdafiə edən tanınmış, hörmətli peşəkarlardan idi. Özü də bu səfər Orxanın qara qitəyə, yəni Afrikaya birinci səfəri deyildi. Hələ 2011-ci ildə, Liviyada Müəmmər Qəzzafi devrilərkən Orxan bu döyüşlərin tən ortasında idi. Çəkiliş zamanı o, iriçaplı silahdan atılan mərmi ilə bərk yaralanmışdı. Ayağı topuq nahiyəsində parçalanmışdı. Rusiyanın o zamankı prezidenti Dmitri Medvedyev, jurnalist Maksim Şevçenkonun vasitəçiliyi ilə Orxanı hadisə yerindən xüsusi təyyarədə Vyanaya, dünyanın ən məşhur cərrahiyyə klinikasına evakuasiya etdirmişdi. Orxan 8 dəfə cərrahiyyə masasına uzadıldı. Sağalınca, yenidən səyyar çəkilişlər. Donbas döyüşləri zamanı başını, telekamerasını, fotoaparatını səngərlərdə gizlətmədi. Ancaq necə deyərlər, "axır suda sınar suyun səhəngi" - Mərkəzi Afrika səfəri Orxan üçün sonuncu oldu".

**Həmid Herisçi demişdi ki, Orxan Camalın son səfərini tanınmış Rusiya oliqarxı Mixail Xodorkovski maliyyələşdirib və onların qətlindən sonra buna görə tənqidlərə məruz qalıb:** "Bu cinayətlə əlaqədar Xodorkovskini xeyli tənqid edirlər. Deyirlər niyə o, bu üç jurnalisti sığortasız, müdafiəsiz MAR-a (Mərkəzi Afrika Respublikasına) ezam edib. Sifarişi Xodorkovski vermişdi. İcraçı təşkilat SUR-du (rusca Sentr Upravlenie Rassledovaniy)".

**Həmid Herisçi Orxan Camalın son səfərinin marşrutunu da açıqlamışdı:** "27 iyul 2018-ci ildə Orxangil Mərakeşin Kasablanka hava limanında yerə enirlər. Əvvəlcədən hazırlanmış ssenariyə görə çəkiliş heyəti burada bir gün ləngiməli idi. Ancaq təcili bir zəng əsasında anında MAR-a yollanırlar. Hadisələrin axarı ilk dəfə məhz bu zəngə görə dəyişib. 30 iyulda Orxangil paytaxt Bangidən 400 kilometr aralı Bambari şəhəri istiqamətində yola çıxırlar. Səfərin məqsədi "Martin" kod isimli informatordan müsahibə almaq olub. Həmin şübhəli şəxs oradakı BMT missiyası əməkdaşı idi. İndi o, mobil telefonlarda deyildiyi kimi, əhatə dairəsindən kənardadır. Yoxdur. İynə olub Afrika cəngəlliklərində itib. Həmin bu coğrafi məntəqədə əsl vətəndaş müharibəsi alovlanır. Əks tərəfləri barışdıran beynəlxalq MINUSCO təşkilatı BMT tabeçiliyindədi. Afrikada axşam - qaranlıq 6 radələrində düşür. 30 iyul saat 22-20-də qətl hadisəsi baş verib. Cinayət Sübyu və Dekao yaşayış məntəqələri arasında, Kaqa-Banboro şəhərinə gedən şose yolu kənarında törədilib. Bu, razılaşdırılmış marşrutdan xeyli aralıdır. Deyilənə görə, jurnalistləri GPS vasitəsilə azdırıblar. Bu isə sadə qaradərili yaraqlıların imkanı xaricindədir. Əsl müəmmalı sirr də, ruslar demiş, "it də burada basdırılıb". Cəsədlər burada, Sübyuya gedən trasın kənarında aşkarlanıb. Onlar geriyə qayıdarkən Bambariyə gedən şosedən xeyli kənara aralanıblar. Sürücü - yerli sakin Byenvenyu Nduvokama sağdır. İlkin fərziyyələr məhz onun ifadələri üzərində qurulub. Sürücünün dəqiq yeri bəlli deyil. Onu MAR rəsmiləri haradasa gizlədiblər. Orxangili 30 iyulda qətlə yetiriblər. Xodorkovski qrupu, SUR öz araşdırmalarını artıq avqustun 4-də elan edib. Bu cür tələskənlik məndə şübhələr doğurur. Aydındır, Xodorkovski ünvanına səslənən ittihamlardan xeyli narahatdır. Yamanca tələsir. Ancaq Rusiyanın rəsmi Tədqiqat Komitəsi də öz araşdırmalarına start verib. İş gedir. Detallar açıqlanmır. Jurnalist Maksim Şevçenko həmin detallara bələddir. Başqa versiya səsləndirir. Cinayətdə Xodorkovskinin, Qərb xüsusi məxfi qurumlarının izini görür".

### Bəs Orxangil Mərkəzi Afrika Respublikasına niyə getmişdilər?

**Həmid Herisçinin bu suala cavabı belə olmuşdu**: "2017-ci ilin oktyabrında MAR prezidenti Fosten-Arkanja Tuader Rusiya xarici işlər naziri Sergey Lavrovla Soçidə rəsmi şəkildə görüşürlər. Yeni seçilmiş prezident Tuader Rusiyadan hərbi kömək, öz mühafizəsini istəyir. Sonra Moskvaya, futbol çempionatına gəlmiş Tuader bu xahişini telekameralar qarşısında, Vladimir Putinin hüzurunda bir daha təkrarlayır. Nəticədə, kontrakt əsasında MAR-a 170, yaxud 800 rus muzdlusu göndərilir. Xalq arasında bu muzdlulara şərti olaraq "Vaqner qrupu" deyilir. Xatırladım ki, məhz həmin rus muzdluları bu ilin fevralında Suriyanın Deyr əz-Zor bölgəsində amerikalıların havadan zərbəsinə məruz qalıb, bəzi məlumatlara görə, 206 qurban veriblər. Hər muzdlunun həyatı 1 milyon dollar civarında sığortalanıb. İndi özünüz hesablayın...

Rus liberalları, Xodorkovski isə əks iddiadadırlar. Deyirlər bəs Orxangil Mərkəzi Afrikadakı rus şirkətlərinin qara işlərini aşkarlamışdılar. Əllərində təkzibolunmaz sübutlar varmış. Guya rus muzdluları buna görə barmaqlarını tətiyə sıxıblar. Orxanı bəlkə də işgəncə ilə dindiriblər də. Biləklərində guya qandal izləri var".

Orxan Camalın qətli ilə bağlı bu günə qədər dörd müstəntiq dəyişsə də, hamısı aciz qalıb. Orxan Camalın keçmiş həyat yoldaşı İrina Qordiyenko bu cinayətin araşdırılmasının gedişatı ilə bağlı mətbuata açıqlamasında bildirib ki, istintaqı aparan dörd müstəntiq dəyişib və onlar bir nəfər kimi onunla görüşdə "köməksiz şəkildə baxaraq şikayətlənirlər ki, heç nə edə bilmirlər". Müstəntiqlərdən sonuncusu - İqor Zolotov onun vəkillərinin "Dosye" mərkəzinin apardığı müstəqil araşdırmanın materiallarının cinayət işinin materiallarına əlavə edilməsi barədə vəsatətlərini rədd edib, eyni zamanda bu araşdırmanı aparanların dindirilməsindən boyun qaçırıb. Vəsatətə jurnalistləri qətlə yetirildikləri yerə aparmış sürücü Byenvenü Duovokamanın, yerli jandarm Emanuel Kotofionun, MAR prezidentinin müşaviri Valeri Zaxarovun və onun tabeliyində çalışan Aleksandr Sotovun telefon nömrələri də əlavə olunub. "Dosye"nin məlumatlarına əsasən, son iki şəxs Rusiyanın "Vaqner özəl hərbi şirkəti" ilə sıx bağlıdır. Bütün adı çəkilənlər jurnalistlərin Afrikaya gəldiyi və qətlə yetirildiyi günlər ərzində öz aralarında dəfələrlə zəngləşiblər. Bundan əlavə, Qordiyenko deyir ki, 2018-ci ilin sentyabrında onun vəkili qətlə yetirilənlərin geyimlərinin Moskvaya gətirilməsi barədə vəsatət qaldırıb, belə ki, geyim əşyaları və digər şəxsi əşyalar olmadan tam dəyərli ballistik ekspertiza aparıla bilməz. Müstəntiq Zolotov həmin vaxt bildirib ki, əşyaların Moskvaya gətirilməsi qeyri-mümkündür, çünki Rusiya və MAR arasında hüquqi yardımlaşma haqqında saziş imzalanmayıb. Halbuki Qordiyenkonun bildirdiyinə görə, bu belə deyil - ölkələr arasında 2018-ci ildə hərbi əməkdaşlıq haqqında hökumətlərarası saziş imzalanıb və sazişdə "hüquq-mühafizə orqanlarının cinayət və digər işlərin araşdırılmasında birbaşa əməkdaşlığı" bəndi yer alır. Həmçinin Orxan Camalın keçmiş həyat yoldaşı danışıb ki, MAR-da Rusiya səfrliyinin birinci katibi Viktor Tokmakov ona qətlin araşdırılmasına şəxsən kömək edəcəyinə dair vəd verib, lakin bunu etməyib. Xatırladaq ki, rusiyalı jurnalistlər Orxan Camalın, Aleksandr Rastorquyevin və Kiril Radçenkonun cəsədləri iyulun 30-da Mərkəzi Afrika Respublikasında aşkar edilmişdi. Onlar "Vaqner" özəl hərbi şirkətinin muzdluları haqqında film çəkmək niyyətində idilər. BMT missiyasının məsləhətçisi ilə görüşə gedərkən onların olduğu avtomobil yolda güllələbaran edilmişdi. Rusiya Federasiyasının İstintaq Komitəsi rusiyalıların qətli ilə əlaqədar cinayət işinə başlamışdı.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

## "Kibercinayətlər" elektron informasiya sistemi formalaşdırılacaq

**"Kibercinayətlər" elektron informasiya sistemi formalaşdırılacaq.**

APA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nda əksini tapıb.

Strategiyaya əsasən, Nazirlər Kabineti 2023-2024-cü illər ərzində Daxili İşlər Nazirliyi (DİN), Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX), BP (tövsiyə olunur), Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX), Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN), Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA) ilə birgə "Kibercinayətlər" elektron informasiya sistemini formalaşdırmaq və bu sistemə səlahiyyətli qurumların çıxışının təmin edilməsi ilə bağlı təkliflər hazırlamağı təmin etməlidir.

Sənəddə bildirilib ki, göstərilən müddətdə informasiya sisteminin operatoru müəyyən olunmalı, texniki şərt hazırlanmalı və sistemin operatoru tərəfindən sistemin yaradılması və fəaliyyətinin təşkili həyata keçirilməlidir.

# "No War"çıların dosyesi - onlar harada və necə yetişiblər...

## Separatçılara "canı yanan", ermənipərəst projelərdə rol alanların bilinən və bilinməyən məqsədləri...

**Vətən müharibəsi və postmüharibə dövründə vaxtaşırı ortaya çıxan, təxribatçı projelərdə yer alan "No War"çılar hazırda yenə özlərinə əl qatıblar.**

Belə ki, avqustun 15-də "No War"çılar "İştirak Evi" adlanan yeni strukturda "Liberallar Dərnəyinin aksiyası" kimi təqdim olunan "Niyə No War?" sloqanı ilə ictimai müzakirə keçiriblər. Bu arada qeyd edək ki, son dövrlər dövlət əleyhinə yönəlmiş bir neçə layihə məhz "İştirak evi" platforması üzərindən həyata keçirilir. Burada keçirilən layihələrin Qərb dairələri - ABŞ səfirliyi və Avropa İttifaqı institutları tərəfindən maliyyələşdirildiyi bildirilir. Keçirilən tədbirlərin təşkilatçıları kimi çıxış edən şəxslərin mütləq əksəriyyəti ultra-liberal, LGTB, feministlər, "No War"çılardır. Beləliklə, "İştirak evi" 44 günlük Vətən müharibəsinin əleyhinə fikirlər səsləndirən "No War"çıların iddialarını, LGTB fəallarının fikirlərini ictimailəşdirməyə, onların səsini ucaltmağa çalışan platforma kimi fəaliyyət göstərir.

"Niyə No War?" sloqanı ilə keçirilən son tədbirə gəldikdə, bu tədbirin də təşkilatçıları Orxan Allahverdiyev, Səməd Şıxı və Nemət Abbasov, iştirakçıları Afiyəddin Məmmədov, Əli Məlikov, Qiyas İbrahimov, habelə AXCP təmsilçisi Saleh Rüstəmovun oğlu Sezgin Rüstəmov və Qubad İbadoğlunun qızı Jalə Bayramova olub. "Müzakirələr"də Azərbaycan dövlətinin və xalqının ünvanına ittihamlar səsləndirilib. Aygül Cəfərova "Azərbaycan müharibədə qalib gəldiyi üçün aqressiv, sərt və eqoist davranır" kimi ifadələr səsləndirib, Çinarə Hünərli "televizorda qazilərlə bağlı xəbərləri görən" şəhid anasını "lom" olmaqda günahlandırıb, Sənubər Heydərova isə "İkinci Qarabağ müharibəsində ölkəmiz, sadəcə, Şuşa ilə bağlı hərbi əməliyyatda uğura nail olub, o biri yeddi rayon razılaşma əsasında verildi" deyib.

Xatırladaq ki, hələ 2016-cı ildə özlərini "sülh göyərçinləri" kimi təqdim edərək, Ermənistanın təxribatına cavab verən, antiterror əməliyyatı keçirən ordumuzu "terrorçu", Azərbaycan dövlətini isə "işğalçı" dövlət adlandırmışdılar. Onların bu hərəkətinə xarici ölkə jurnalist və siyasi şərhçiləri səssiz qalmamışdı. Həmin vaxt polşalı araşdırmaçı jurnalist Miloş Podnanski yazırdı: "Qəribədir ki, ərazilərinin 20%-i işğal altında olan Azərbaycanda problemin həllini təklif etdiklərini deyənlər ("No war"çılar nəzərdə tutulur) əslində kollaborasionist və məğlubiyyətçi mövqedən çıxış edir". Gürcüstanın "Rustavi-2" telekanalı Azərbaycandakı neoliberalların "Müharibəyə yox" şüarı altında əslində Corc Sorosun ideyalarını təbliğ etdiyini vurğulayırdı. İş o yerə çatmışdı ki, bizim "No War"çılar özlərinə dost-qardaş bildikləri Ermənistanda da ikrah doğururdular. Ermənistanın "Hraparak", "Haykakan Jamanak", "Pastinfo", "Mamul" media qurumları azərbaycanlı "No War"çıları qəribə məxluqlar adlandırırdılar.

"No War"çılar 2020-ci ildə Vətən müharibəsində daha kəskin şəkildə aktivləşərək, müharibəni dərhal dayandırma çağırışları sıralamağa başladılar və hətta Azərbaycan Ordusunu qəddarlıqda suçlamaqdan da çəkinmədilər. Ermənistanın işğalçı ordusuna və qarabağlı erməni separatçıların terror dəstələrinə qarşı əks-hücum əməliyyatları başlayandan az sonra Azərbaycandakı "No War"çılar ermənilərlə birgə bəyanat yaydılar.

"Azərbaycanlıların müharibəyə qarşı bəyanatı" ("Anti War Statement of Azerbaijani Leftist Youth") adlı bu sənəd rəsmi Bakıdan hərbi əməliyyatların dərhal dayandırmağı, qoşunları geri çəkməyi və ermənilərlə danışıqlara başlamağı tələb edirdi.

Eyni hal müharibədən sonra, 2022-ci il sentyabrın 12-13-ü tarixlərində Ermənistan Silahlı Qüvvələrinin xüsusi diversiya dəstəsi ərazilərimizə sızmağa çalışanda ələ keçməsindən sonra da baş verdi. "No War"çılar dərhal ölkəmizi "Ermənistanın suveren ərazisinə soxulmaqda, Ermənistan ərazilərini işğal etməkdə və hərbi təcavüz"də ittiham etdilər.

Qarabağdakı separatçılara "canı yanan" bu ermənipərəst projelərdə rol alan ən fəal "No War"çılar kimlərdir?

**Altay Göyüşov.** Tarixçi, ictimai fəal olan Altay Göyüşov fürsət düşdükcə sosial şəbəkələrdə Azərbaycanı "təcavüzkar" adlandırmaqdan çəkinmir. Ötən il "Şəxsən mənə İrəvan, Zəngəzur filan lazım deyil və Ermənistana qarşı təcavüzü birmənalı olaraq pisləyirəm" fikirləri ilə ictimaiyyətin qəzəbinə tuş gəlmişdi. Bununla belə, Altay Göyüşov öz mövqeyində qalmaqda davam edir.

**Jalə Bayramova.** Qubad İbadoğlunun qızı Jalə Bayramova Lund Universitetində Beynəlxalq İnsan Haqları Hüququ üzrə magistratura təhsili alıb, Nəfəs LGBTİ Azərbaycan Alyansının hüquqşünasıdır. Zaman-zaman LGBTİ ilə bağlı keçirilən panellərdə moderatorluq edir.

**Süleyman Süleymanlı.** İsveçdə yaşayan, özünü siyasi bloger kimi təqdim edən azərbaycanlı. Ötən il S.Süleymanlı da düşmən dəyirmanına su tökərək, Azərbaycanı "təcavüzçü" adlandırıb, "Azərbaycan hərbçiləri Ermənistan torpaqlarında terror törədiblər" kimi fikirlər səsləndirmişdi.

Ümumiyyətlə, bu "sülh quşları"nin bioqrafiyasına diqqət yetdirdikdə, birmənalı şəkildə məkrli Qərb dairələrinə bağlı olduqları və maliyyələşdirildikləri ortaya çıxır. Əsas məqsədləri isə heç də bəyan etdikləri deyil, məkrli planlarda yer alırlar.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Bəxtiyar Hacıyevin istintaqı yekunlaşırmı - vəkilindən açıqlama

**Bəxtiyar Hacıyevin ev dustaqlığına dair vəsatəti Bakı Apelyasiya Məhkəməsi tərəfindən təmin edilməyib. "Yeni Müsavat" xəbər verir ki, bunu vəkil Aqil Layıc bildirib. O deyib ki, ötən gün keçirilən məhkəmə təqsirləndirilən şəxsin həbsdə qalmasına qərar verib.**

Yada salaq ki, Bəxtiyar Hacıyev ötən ilin dekabr ayında həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 221.2.2 (xuliqanlıq), 289.1 (məhkəməyə hörmətsizlik etmə), 192 (qanunsuz sahibkarlıq), 193-1 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma), 320.1 (rəsmi sənəd saxtalaşdırma), 320.2 (bilə-bilə saxta sənədlərdən istifadə etmə) və 206-cı (qaçaqmalçılıq) maddələri ilə ittiham irəli sürülüb. Hacıyev dekabrın 15-də azadlığa buraxılması tələbi ilə aclıq aksiyasına başlayıb və ictimaiyyət nümayəndələrinin təkidli müraciətlərindən sonra dekabrın 28-də aclığı dayandırıb. Yanvarın 9-da Bakı Apelyasiya Məhkəməsi onun azadlığa buraxılması ilə bağlı vəsatətini təmin etmədiyindən o, aclıq aksiyasını bərpa edib. Hacıyev aclıq aksiyasını 51-ci günündə dayandırıb.

İstintaq orqanı bu il iyunun 16-da Bəxtiyar Hacıyevə Cinayət Məcəlləsinin 192-ci (Qanunsuz sahibkarlıq), 193-cü (Yalançı sahibkarlıq), 320.1-ci (Lisenziyadan və ya hüquq verən və ya öhdəlikdən azad edən digər rəsmi sənəddən istifadə etmək məqsədi ilə) maddələri ilə ittiham irəli sürüb. Yeni ittihamlar Bəxtiyar Hacıyevin qrant alması və təyinatı üzrə xərcləməməsi ilə bağlıdır.

Qeyd edək ki, 1982-ci il təvəllüdlü Bəxtiyar Hacıyev Bakı Dövlət Universitetinin və ABŞ-ın Harvard Universitetinin məzunudur. O, 2011-2012-ci illərdə hərbi çağırışdan yayınmaq ittihamı ilə həbsdə yatıb, siyasi məhbus sayılıb.

❑ **Afaq MİRAYİQ,**
**Yeni Müsavat**

# Xırdalanda intihar etdiyi bildirilən kişini arvadı öldürübmüş

**Avqustun 25-i gecə saat 2 radələrində Xırdalan şəhərində 1981-ci il təvəllüdlü Elsevər Həsənovun yaşadığı evdə ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Abşeron Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, ilkin araşdırma zamanı Elsevər Həsənovun bıçaqla özünə xəsarət yetirərək intihar etməsi yaxınları tərəfindən bildirilsə də, hadisənin təfərrüatları ətraflı olaraq rayon prokurorluğunda araşdırılıb.

Araşdırmalarla 1989-cu il təvəllüdlü Gülnar Məmmədovanın yaşadıqları evdə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı 1981-ci il təvəllüdlü Elsevər Həsənova bıçaqla xəsarət yetirib, ehtiyatsızlıqdan onun ölümünə səbəb olmasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Gülnar Məmmədova iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində həbs-qətimkan tədbiri seçilib.

İbtidai istintaq davam etdirilir.

# Ukraynada Zelenskini devirmək planı "təxirə salındı" - seçkilər müharibədən sonra olacaq

## **Politoloq:** "Müharibənin uzanması heç də Ukraynanın xeyrinə deyil, ona görə də tez bir zamanda danışıqlara getməlidir"

**Bir neçə ay öncə Ukraynada prezident Volodimir Zelenskinin devrilməsi planının mövcudluğu barədə dünya mediasında yazılar dərc olunurdu. Bildirilirdi ki, payızda Ukraynada seçkilər keçirilərsə, ya seçkilər zamanı Zelenski iqtidardan salına bilər, yaxud da seçkilərin gedişində, yaxud nəticələrdən dərhal sonra daxili qarşıdurmalar yarana və bələliklə çevriliş baş verə bilər. Bu baxımdan Ukraynada müharibə getdiyi vaxtda seçkilərin keçirilməsi təhlükəli hesab olunurdu.**



Görünür, bu təhlükənin real olması nəzərə alınıb və artıq seçkilərin təxirə salındığı bildirilir. Belə ki, Ukraynada prezident seçkilərinin müharibədən sonra keçiriləcəyi açıqlanıb.

Ukraynada prezident seçkiləri yalnız hərbi əməliyyatlar başa çatandan sonra keçirilə bilər.

APA-nın "Strana.ua"ya istinadən verdiyi xəbərə görə, bunu hakim Xalqın Xidmətçisi Partiyasının sədri Yelena Şulyak bildirib.

Yelena Şulyak deyib ki, hazırda deputatlar qanunvericiliyə müharibədən sonra ilk seçkilərin keçirilməsinə dair dəyişiklik hazırlayırlar.

Açıqlamadan belə başa düşülür ki, seçkilər yalnız müharibə bitəndən sonra keçiriləcək və bunadək Zelenski hakimiyyətdə qalmaqda davam edəcək. Müharibənin isə sonu görünmür. Siyasi təcrübə ki, Ukrayna tamamilə doğru qərar verib. Əksər dövlətlərin qanunvericiliyinə görə müharibə şəraitində seçkilər avtomatik təxirə salınır. Görünür, Ukrayna qanunvericiliyində indiyədək belə norma olmayıb ki, deputatlar yeni əlavələr hazırlayır.

**Politoloq Tofiq Abbasov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Politoloq qeyd edib ki, müharibənin uzanması Ukraynanın xeyrinə deyil, buna görə də tez bir zamanda danışıqlara getməlidir:** "Zelenskinin faktiki olaraq, hakimiyyətdə vaxtının uzadılması məsələsi onun üçün son dərəcə önəmli məsələyə çevrilmişdi və bu, açıq-aşkar görünür. Yəni faktiki olaraq, sağdan, soldan, xaricdən, daxildən kifayət qədər sərt tənqidlərə məruz qalır. Lakin Zelenski özünü çox təmkinli göstərir, elə duruş sərgiləyir ki, sanki onun böyük resurs bazası var və o, müharibəni aparmaqda həm israrlıdır, həm də qələbə qazanmaq üçün kifayət qədər hazırlıqlıdır. Amma əslində belə deyil.

Məlum məsələdir ki, müharibə şəraitinin olması özü imkan yaradır ki, prezident öz səlahiyyətlərini uzatsın. Bir çox ölkələrdə bununla bağlı qaydalar, konstitusiyada yer almış qanunlar var ki, əgər ölkə müharibəyə qatılırsa, onun ərazisində eksperimental şərait varsa, bu zaman istər prezident, istərsə də parlament seçkiləri keçirilmir.

Amma qeyd etdiyim kimi, Zelenski özünü kifayət qədər arxayın göstərməyə çalışır və faktiki olaraq onun da ümidi ondan ibarət idi ki, seçkilər keçirilməyəcək, insanlar kifayət qədər bəlli şəraitdədir, belə olduğu halda avtomatik olaraq, onun səlahiyyətləri uzadılacaq. Lakin burada əsas məsələ odur ki, Zelenski həqiqətən də bu prosesə nə qədər hakim kəsilə bilib? Və ikincisi, onun resus bazası hansı vəziyyətdədir? Bununla bağlı Qərbdə spesifik, bədbin bir yanaşma var. Bu günə qədər Qərb ölkələrinin rəhbərləri, hətta parlamentlərindəki müxalif qüvvələr də deyirdilər ki, Zelenskiyə kömək etmək lazımdır, Ukraynanı təmin etmək vacibdir ki, o, müharibədə uduzmasın və sairə".

**Politoloq qeyd edib ki, müharibənin uzanması heç də Ukraynanın xeyrinə deyil:** "Baxmayaraq ki, Kiyev və digər iri şəhərlərdə bir o qədər də müharibə abı-havası yoxdur. Belə ki, müəssisələr, restoranlar, ictimai məkanlar, iaşə obyektləri işləyir, fəaliyyətdədir, insanlar hələ gey-güzar edir ki, müharibə şəraiti hiss olunmur. Yəni səfərbərlik abı-havası yoxdur. Burada söhbət vətəndaş cəmiyyətinin səfərbər olunmasından gedir ki, həqiqətən də kifayət qədər böyük boşluqlar var. Ona görə də indiki vaxtda daxildəki vəziyyətlə bağlı məlumatı olan Qərb mənbələri də bildirirlər ki, xeyr, Ukrayna, ümumiyyətlə, müharibənin gedişatında, onun aparılmasında praqmatik mövqe sərgiləyə bilmir. Doğrudur, dövlət rəhbəri xarici işlər nazirləri bəyanatlar verir, danışıqlar aparır, diplomatik səviyyədə vəzifələrini icra edirlər, amma bu proseslərin müharibənin gedişatına bir o qədər də ciddi təsiri yoxdur. Ona görə də hesab edirəm ki, Ukrayna nə qədər tez danışıqlara razılıq versə, bir o qədər onun üçün yaxşı olar. Artıq Qərbdən də belə mesajlar gəlir. Çünki əks-hücum məsələsi şişirdilmiş tərzdə təqdim edilirdi ki, "bizə köməklik edin, silah-sursat verin ki, əks-hücuma hazırlaşırıq və bu çox ciddi bir gediş olacaq", amma əslində miqyaslı əks-hücum olmadı. İkincisi də mövqe çəkişmələrində Ukrayna bəzi yerlərdə irəli getdi, amma sonradan əldə etdikləri mövqeni əldən verdilər, geri çəkilməli oldular.

Beləliklə, bu prosesdə Ukraynanın resursu tükənir və tükənməkdə davam edir. Aydın məsələdir ki, Rusiyanın həm sərvəti, həm ərazisi, həm demoqrafik resusu Ukraynadan qat-qat üstündür. Ukraynanı artıq 8 milyona yaxın insan tərk edib və orada qalan insanların da hamısı bu prosesdə iştirak etmir. Yalnız ən vətənpərvər mövqe sərgiləyən qüvvələr bu proseslərə dərindən yanaşır, özlərini fəda edirlər. Amma bəzi zümrələr özlərini tamamilə kənara çəkirlər, ya çağırışlardan qaçır, ya da əgər cəlb olunurlarsa, mövqelərini atıb qaçırlar. Odur ki, bu proseslərdə Ukraynanın vəziyyəti o qədər də ümidverici deyil.

Yalançı şüarçılıq, çağırışlar belə vəziyyətdə heç nə vermir. Əgər daxildən məlumatımız olmasaydı deyərdik ki, hə, ukraynalılar əməlli-başlı vuruşur və sona qədər də gedəcəklər, hətta Moskvanı da tutacaqlar. Amma belə deyil. Heç Moskvanın özündə də bir o qədər istək yoxdur ki, irəli getsinlər. Rusiya Donetsk, Luqansk vilayətlərini və bəzi dənizkənarı zolaqları qoşunları tutub və bununla kifayətlənməyə hazırdır. Çünki Rusiyanın əsas məqsədi bu idi ki, Ukraynanı dənizə çıxışdan tamamilə məhrum etsinlər və buna da nail olublar. İnanmıram ki, Ukrayna dənizkənarı zolaqda bir dönüş yaratsın, əks-hücuma keçərək, limanları yenidən özünə qaytara bilsin".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

## Rusiya Qərbə cavab olaraq Belarusda nüvə silahı yerləşdirib

**Rusiya Qərb qonşularının aqressiv davranışlarına cavab olaraq Belarusda taktiki nüvə silahı yerləşdirib və birgə aviasiya qrupunu gücləndirib.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Federasiyası Təhlükəsizlik Şurası katibinin müavini Aleksey Şevtsov "Rossiyskaya qazeta"ya müsahibəsində bildirib.

Onun sözlərinə görə, ittifaq dövlətinin yenilənmiş təhlükəsizlik konsepsiyası beynəlxalq vəziyyətin hərtərəfli təhlili əsasında təhlükəsizlik və sabitliyin təmin edilməsi üzrə ümumi vəzifələrin həyata keçirilməsinin əsas istiqamətlərini və mexanizmlərini müəyyən edəcək.

Şevtsov bildirib ki, Ukraynada hərbi əməliyyatlar başlamazdan əvvəl də Qərb dövlətləri Minskə hərbi-siyasi və iqtisadi təzyiqləri artırıblar: "Lakin əks-effekt əldə ediblər və ən yaxın müttəfiqimizlə münasibətlərimizi daha da gücləndiriblər", - deyə Nikolay Patruşevin müavini vurğulayıb.

# Dron və PUA-ların utilizasiyası ilə bağlı tələblər müəyyənləşəcək

**Dronlar, pilotsuz aparatların yaradılmasına (PUA), tətbiqinə və utilizasiyasına aid təhlükəsizlik tələbləri müəyyən ediləcək.**

APA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 - 2027-ci illər üçün Strategiyası"nda əksini tapıb.

Strategiyaya əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Elm və Təhsil Nazirliyi ilə birgə 2023-2025-ci illər ərzində Ağıllı" sistemlərin (dronlar, pilotsuz aparatlar, humanoidlər, robotlar və s.) yaradılmasına, tətbiqinə və utilizasiyasına aid təhlükəsizlik tələblərini müəyyən etməyi təmin etməlidir.



Eyni zamanda həmin qurumlar 2024-2027-ci illər ərzində Ağıllı" sistemlərin yaradılmasına, tətbiqinə və utilizasiyasına aid elmi, texnoloji, hüquqi və s. məsələlərin kompleks həlli üçün təkliflər verməyi təmin etməlidir.

YENİ MÜSAVAT

Son səhifə

N 151 (8287) 29 avqust 2023



# ABŞ-da tutuquşu ilə qarət

ABŞ-ın Virciniya ştatında baş verən qarət hadisəsi müzakirələrə səbəb olub. Belə ki, çiynində üç tutuquşu olan kişi kafeyə daxil olaraq satıcını bıçağa oxşar alətlə hədələyib və kassada olan pulları götürərək hadisə yerindən uzaqlaşıb. Hadisə anbaan müşahidə kameraları tərəfindən qeydə alınıb. Yerli sakinlər ehtimal edirlər ki, cinayətkar quşları özü ilə ona görə gəzdirib ki, şahidlər onun xüsusi əlamətlərini xatırlamasınlar.

Hazırda cinayətkarın tutulması istiqamətində axtarışlar aparılır.

## Gündə 5 dəqiqə idman xərçəng riskini azaldır

Sidney Universitetinin alimləri gündə 4,5 dəqiqə güclü idmanın bəzi xərçəng növlərinin riskini 32 faiz azalda biləcəyini müəyyən ediblər.

Təcrübədə bir həftə ərzində gündəlik aktivlik izləmə cihazları taxan və idman etməyən 22 398-dən çox insan iştirak edib. Xəstələrin orta yaşı 62 olub. Yeddi ildən sonra tədqiqatçılar müxtəlif fəaliyyət səviyyələri olan iştirakçıların xərçəng xəstəliyinə tutulma hallarını qiymətləndiriblər. Təhlil göstərib ki, gündəlik tapşırıqlar zamanı cəmi 4-5 dəqiqəlik güclü fiziki fəaliyyət xərçəngin ümumi riskini 18, qeyri-kafi fəaliyyətlə əlaqəli xərçəng riskini isə 32 faiz azaldır. Əvvəlki araşdırmalar göstərib ki, məşq etməyən yetkinlərdə döş, endometrium və kolon xərçəngi inkişaf riski artır.

## Bu qan qrupundan olanlar daha çox yaşayır

Həkimlərin əksəriyyəti bir insanın sağlamlığının birbaşa qan qrupundan asılı olduğuna inanır. Kardioloq Vladimir Pidxomutnikovun araşdırmasına görə, qan qrupu ömür uzunluğuna təsir edə bilər. Antitellərin, eritrositlərin və antigenlərin dəstləri, hər bir qan qrupunun xüsusiyyətləri, uzunömürlülük şansını müəyyən edir.

Beləliklə, həkim birinci qan qrupunun nümayəndələrinin uzunömürlülük şansının ən çox olduğunu söyləyib. Bu, bu qan qrupu olan insanların laxtalanma qabiliyyətinin ən pis olması ilə əlaqədardır, buna görə tromboz, infarkt və emboliya ehtimalı aşağıdır. Ancaq birinci qan qrupu olan insanlar hələ də ürək-damar sistemi ilə bağlı diqqətli olmalıdırlar. İkinci qan qrupunun sahibləri diabet, stress və soyuqdəyməyə meyllidirlər. Belə insanların xərçəngə tutulma ehtimalı yüksəkdir, həmçinin tez-tez tonzillit və otit halı olur.

Dördüncü qan qrupunun sahibləri ürək xəstəliklərinə və ürək-damar sisteminin müxtəlif patologiyalarına meyllidirlər.

Hər halda, unutmayın ki, qan qrupu insanın uzunömürlüyünə təsir edən müəyyənedici faktor deyil. Sağlam həyat tərzi, düzgün qidalanma, mütəmadi tibbi müayinələr də uzunömürlülük və firavanlıq üçün vacibdir.

# Sürətli yox, ağılla arıqlamaq lazımdır



Ekspertlər deyir ki, bir ay ərzində çəkimizin 10 faizdən çoxunu itiririksə, deməli, sürətli arıqlama gedir. 80 kiloqram çəkisi olan biri 1-ci ay 8 kiloqram, 2-ci ay 7 kiloqram, 3-cü ay da təxminən bu qədər arıqlayırsa, bu, artıq həddindən artıq sürətli çəki itirilməsi deməkdir və normal sayılmır. Həftəyə bir kiloqram çəki vermək daha məsləhətli və sağlamdır.

Son vaxtlar məşhur olan "su orucu"nda da insanlar sürətli çəki itirirlər. Bəs bu niyə məsləhət görülür? Burada yanaşma fərqlidir. Su orucunda da sürətli arıqlama baş verir. Bir-iki həftə ərzində çox miqdarda çəki vermək olur. Bunun isə bir yeniləmə, detoks olduğu düşünülməkdədir. Bir-iki həftə sonra artıq sən eyni formada çəki itirmirsən, qısa müddətlik prosesdir. Çəkidən tez qurtulmaq üçün uzun müddət yarıac gəzmək həm bədən üçün stressdir, həm də makro və mikro elementlərin yetərli alınmaması bir çox problemin yaranmasına səbəb olur. Bunlar başlıca olaraq ürək ritminin pozulması, aşağı qan təzyiqi, elektrolit balansının pozulması, orqan çatışmazlığı, anemiya, saç tökülməsi, tiroid tənbəlliyi, öd kisəsi daşı, yuxu pozğunluqları, depressiya və s.-dir.

Sürətli çəki itirməyə hər orqanizm dözə bilmir. Çox tez arıqlayırlar deyə, birinci sevinirlər, amma sonra bədən gücdən düşür, halsızlıq, zəiflik yaranır, işgörmə qabiliyyətləri itir, heç nə etməyə gücləri qalmır. Bədənə yağlar, zülallar, karbohidratlar, - hamısı lazımdır. Sürətli çəki itirmək üçün orqanizmi, hüceyrələri ac saxlamaq olmaz. Onlar həyat uğrunda mübarizə aparırlar.

## Burun əməliyyatı yaşı 15-ə düşdü

Burun əməliyyatı günümüzün ən çox edilən estetik proseduralarının biridir. Burnunu bəyənməyən, bunu özünə kompleks edən insanlar ilk rinoplastikaya müraciət edirlər. Ancaq son zamanlar bu əməliyyatı etdirmək istəyənlərin orta yaşı 15-ə düşüb. Bununla bağlı İstanbul Təhsil və Araşdırma Xəstəxanasının Lor həkimi Enes Yiğit müsahibə verib. Onun sözlərinə görə, əməliyyatın yaş həddinin 15-ə endirilməsi doğru deyil.

"15-16 yaş arası yeniyetmələr daha yaxşı görünmək üçün rinoplastikaya müraciət edirlər. Amma bu doğru deyil. Bu və buna bənzər əməliyyatlar 18 yaşından əvvəl edilməməlidir. Biz kişi və qadın fərq olmadan 18 yaşı tamam olmamış şəxsləri əməliyyat etmirik. Çünki üz sümüyünün tam oturuşması ilə cizgilər tamamlanmalıdır. Həmçinin pasiyent psixoloji yetkinliyə çatmalıdır", - deyə həkim bildirib.

## Bunları bilirsinizmi?

* İndiyə qədər 1 aprel zarafatlarından 1000-ə qədər insan ölüb.
* Yaponiyada küçələrin adları olmur.
* Kosmosda astronavtlar qışqıra bilmir, çünki orda cazibə qüvvəsi yoxdu, həmçinin onların gözlərindən yaş da gəlmir.
* İndoneziyada bazarlıq edərkən satıcı pulu yerə atsa, son qiymət mənasına gəlir, yəni artıq razılaşıb.
* Sevdiyimiz zaman beynimiz "phenylethylamine" düzəldir. Bu ürək döyüntüsünü tezləşdirir və özümüzü xoşbəxt hiss etməyimizə səbəb olur. Bu kimyəvi maddə şokoladda da vardır.
* Kenqurular geriyə doğru gedə bilmir.
* Bir qarışqa yuvasına gündə təxminən 2500 böcək daşıyır.
* Qitə adlarının hamısı eyni hərflə başlayıb eyni hərflə də bitir.
* Okeanın ən dərin yerində dəmir bir topun suyun dibinə çökməsi bir saatdan çox vaxt aparar.
* Bir kiloqram limonda bir kiloqram çiyələkdəkindən daha çox şəkər var.
* Bilyard topu sıxılmış kağızdan düzəldilir.
* İlanlar eşitmirlər.
* Siçanlar qusmurlar.
* Kenqurular arxaya yeriyə bilmirlər.

## İspaniyanın Malyorka adasında şiddətli qasırğa yaşanıb



Aralıq dənizinin İspaniya sahillərinə aid Malyorka adasında ildırım və leysanla müşayiət olunan şiddətli qasırğa baş verib. Xüsusən Palma və Kalviya şəhərlərini qismən su basıb, qasırğa bəzi iri gövdəli ağacları kökündən çıxarıb. Adada tüğyan edən güclü külək səbəbindən iki təyyarə geriyə qayıtmaq məcburiyyətində qalıb. Bundan başqa, metronun və qatarların hərəkəti dayandırılıb.

## Fransa məktəblərdə müsəlman geyimlərini qadağan edəcək

**Fransa hakimiyyəti məktəblərdə əbayələrin - bədəni tamamilə örtən və adi paltarın üstündən geyilən müsəlman qadın paltarlarının geyinilməsini qadağan etmək niyyətindədir.**

Bu barədə ölkənin yeni milli təhsil və gənclərlə iş üzrə naziri Qabriel Attal məlumat verib.

"Respublikada məktəb dünyəvilik kimi möhkəm prinsiplər üzərində qurulub. Dünyəvilik məktəb vasitəsilə özünü azad etmək azadlığıdır. Sinif otağına girəndə şagirdlərin dinini təkcə onlara baxmaqla müəyyən edə bilməməlisən", - o, TF1 telekanalının efirində bildirib.

Nazir söz verib ki, gələn həftə məktəb rəhbərləri ilə bu qadağanın necə həyata keçiriləcəyini müzakirə edəcək.

Xatırladaq ki, 2004-cü il martın 15-dən Fransanın təhsil müəssisələrində dini simvolları və ya dini inancları simvolizə edən geyimlər qadağan edilib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəllliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ
Sifariş: 2218
Lisenziya N: B 114
SAYI: 1.500